№ 22 (1017) 31 may - 6 iyun 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Prezident İlham Əliyev: "Cənub Qaz Dəhlizi yeni enerji damarıdır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Həmçinin, XXV yubiley Beynəlxalq Neft və Qaz sərgisinin də açılışı olub, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanıb.

Dövlətimizin başçısı mərasimdə nitq söyləmişdir.

**Prezident İlham Əliyevin nitqindən:**

- Bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Cənub Qaz Dəhlizinin rəsmi açılışı günüdür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Eyni zamanda, onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayır və sərgidə iştirak edən yoldaşlar bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, Xəzər Neft-Qaz Sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

Xəzər Neft-Qaz Sərgisi Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə Cənub Qaz Dəhlizinin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etmişdir. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açırdı. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə Azərbaycan müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.




Dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox. O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün ki, xalq səfalət içində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan "qara qızıl" Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəlmirdi və eyni zamanda, biz Abşeron yarımadasında da böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlət həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.



Qeyd etdiyim kimi, 1994-cü ildə birinci Xəzər Neft-Qaz Sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu olmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır. "Azəri-Çıraq-Günəşli" neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış "Əsrin kontraktı"nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. "Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün "Əsrin kontraktı"nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın yeni neft strategiyası icra olunmağa başlamışdır.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə Cənub Qaz Dəhlizinin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addım idi. "Şahdəniz" qaz yatağı Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır.

1997-ci ildə isə "Əsrin kontraktı"nın icrası nəticəsində "Çıraq" platformasından ilk neft çıxarılmışdır. O tarixi videokadrlar artıq göstərilir və doğrudan da, tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı-Supsa kəməri istifadəyə verilmişdir. Yəni, bu, onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz də yox idi. Ondan sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səylər, böyük müdriklik tələb edirdi. Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağlamışıq.

Ondan sonra 2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə baş-



lamışdır. O günü də mən çox yaxşı xatırlayıram. Ceyhandakı mərasimi də yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha mən demək istəyirəm ki, doğrudan da, bunlar tarixi nailiyyətlərdir.

**“Şahdəniz” yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi.** Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, - o da çox rəmzi məna daşıyır, çünki “Əsrin kontraktı” 1994-cü il sentyabrın 20-də imzalanmışdır, - 20 ildən sonra Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir.



Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulubdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcək.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və “Cənub Qaz Dəhlizi” layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynamışdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, BP şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş nazir xanım Mey ilə mənim iştirakımla BP ilə SOCAR arasında növbəti kontrakt imzalanmışdır. Bu, bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru, təbii ki, çox böyük yer tutur. Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm.

**Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb.**

Eyni zamanda, üç Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi əminəm ki, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib.Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr, - hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar, - beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam şəkildə təmin ediləcək.

Bu gün Azərbaycan ayaqda möhkəm duran bir ölkədir, müstəqil ölkədir, müstəqil siyasət aparan ölkədir, güclü iqtisadiyyata malik olan bir ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ÜDM üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulmuşdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilib. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu, onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan üçüncü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq, eyni zamanda və böyük dərəcədə bu işlərin təməlində düşünülmüş siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı var. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün bu tarixi gündə mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bugünkü günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən Cənub Qaz Dəhlizinə uzun və uğurlu ömür arzulayıram.

* * *

Sonra mərasimdə ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra OUDKİRK və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma NİKOLSON çıxış etmişlər. Baronessa Emma NİKOLSON Baş nazir xanım Tereza Meyin “Xəzər Neft və Qaz 2018” sərgi və konfransı münasibətilə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təbrik məktubunu oxumuşdur.

Sonra Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Prezident Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə və Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminin iştirakçılarına məktubunu oxumuşdur.

Tədbirdə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd BARKİNDO, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri SENTYURİN və “BP Group Upstream”in baş icraçısı Bernard LUNEY çıxış etmişlər.

Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağı bu vaxtadək Azərbaycanda aşkar edilmiş ən böyük qaz yatağıdır. Bu nəhəng yataq təxminən 860 kvadratkilometr ərazini əhatə edir və onun ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. “Şahdəniz 2” layihəsi çərçivəsində hasil olunacaq qaz Cənub Qaz Dəhlizi ilə ötürüləcək. Qaz təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. Türkiyəyə ilk qaz bu il, Avropaya isə 2020-ci ildə çatacaq.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılışını etmişdir.

Bununla da Azərbaycan daha bir tarixi nailiyyətə imza atdı. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan TANAP boru kəməri gələn ay istismara veriləcək. Qaz ixracı nəticəsində ölkəmizin gəlirləri artacaq, Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənəcək.

# İlham Əliyev: “Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir”




Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul keçirilmişdir.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.***

***Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləmişdir.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən:**

-Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır.

1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. “Əsrin kontraktı” imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri möhkəmdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir.

**Biz güclü ordu yaratmışıq.** 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik.

**Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır.** Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir.

Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq. Biz dənizləri neft–qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə, Aralıq dənizi ilə neft kəmərləri vasitəsilə birləşdi. Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərləri inşa edildi.

**Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi.**

**Biz nəqliyyat infrastrukturunu yaratmaqla qitələri birləşdirdik.** Açıq dənizlərə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı-Tbilisi-Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt Limanının işə düşməsi, “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür ki, Azərbaycanı dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirək.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır.

O ki qaldı, bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcək.

Hesab edirəm ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atdı. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır.

Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. **Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi.** Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də, belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

# Ziyad Səmədzadə: "Cənub Qaz Dəhlizi 21-ci "Əsrin müqaviləsi" sayıla bilər"

*Oxu.Az-ın suallarını akademik, Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə cavablandırır:*

**-Ziyad müəllim, Azərbaycan xalqı, Azərbaycan dövləti çox əlamətdar və tarixi günlər yaşayır. Belə ki, cəmi iki gün öncə, mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyi qeyd olundu. Onun ardınca, mayın 29-da Cənub Qaz Dəhlizinin (CDQ) rəsmi açılışı oldu. Bu əlamətdar və tarixi hadisələrlə bağlı nə deyərdiniz?**

***İlham Əliyev: "...Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib..."***

- Doğrudan da, çox əlamətdar, çox tarixi, çox fəxr edilməli və qürur duyulmalı günlər, hadisələr yaşayırıq. Mayın 28-də ilk müstəqil Azərbaycan dövlətinin, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyi tamam oldu və dövlət, ölkə rəhbərliyi səviyyəsində təntənəli şəkildə qeyd edildi. 100 il öncə Müsəlman-Şərq aləmində ilk demokratik dövlət quruldu, belə demək mümkünsə, yoxdan var olan bir məmləkət dünyaya bəyan olundu. Cümhuriyyət qurucularımız, istiqlal mücahidlərimiz dünyada imzalar içinə Azərbaycan adlı müstəqil dövlətin imzasını da atdılar. Bu dövlətin ömrü cəmi 23 ay çəksə də, AXC qurucuları bu gün özlərini demokratiyanın beşiyi sayan dövlətlərin uzun illər sonra atdıqları addımları məhz 1918-20-ci illərdə gerçəkləşdirdilər, parlamentarizm ənənələrini bərqərar etdilər. Qadınlara seçmək və seçilmək hüququnun verilməsi - hansı ki, bir çox aparıcı Avropa, Qərb dövlətləri qadınlara seçib-seçilmək hüququnu çox-çox illər sonra tanıdılar - faktı özü bəs edər ki, Cümhuriyyət qurucularının tarixi və parlaq fəaliyyətinə geniş işıq salmış olsun. Həmin dövrdə dövlətçilik üçün nələr tələb olunurdusa, hamısı, demək olar ki, formalaşdırılmışdı, bütün sahələrdə islahatlar aparılırdı, Azərbaycan əraziləri 114 min kvadrat kilometrə çatdırılmışdı və s. Demək istəyirəm ki, 23 aylıq ömrü olsa da, Azərbaycan Xalq Cümhuriyyəti şərəf, qürur tariximizdir.

Heç təsadüfi deyil ki, ötən ilin sonlarında keçirdiyi müşavirədə də ölkə Prezidenti cənab İlham Əliyev 2018-ci ilin "Cümhuriyyət ili" elan olunması ilə bağlı qərar verdi və onu öz sərəncamı ilə rəsmiləşdirdi. Ötən dövrdə də AXC-nin yüz illiyinin yüksək, adına layiq səviyyədə qeyd olunması üçün çox önəmli addımlara start verildi, çoxsaylı tədbirlər keçirildi və həmin tədbirlərdən biri də mayın 28-də keçirilən rəsmi qəbul oldu. Rəsmi qəbulda çıxışı zamanı cənab prezident bir daha Cümhuriyyətimizə, Cümhuriyyət qurucularımıza son dərəcə böyük hörmət və ehtiramını, Azərbaycanın varislik ənənələrinə sadiqliyini nümayiş etdirdi. O, qeyd etdi ki, "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır".

Cənab İlham Əliyev, həmçinin bəyan etdi ki, Xalq Cümhuriyyətinin qurucuları da bu günü görsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər. Çünki onun da bəyan etdiyi kimi, "Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir… Bizim taleyimiz öz əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir…". Bu, elə bilirəm ki, Cümhuriyyət qurucularımıza, AXC-yə verilən ən böyük qiymət və dəyər idi.

Bu tarixi hadisədən heç bir gün keçməmiş, mayın 29-da isə ölkəmizin tarixində daha bir əlamətdar, tarixi gün yaşandı. Ölkə prezidentinin iştirakı ilə Səngəçal terminalının ərazisində Cənub Qaz Dəhlizinin tarixi rəsmi açılış mərasimi oldu. Qeyd edim ki, Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdu. O vaxt Cənub Qaz Dəhlizinin təməli qoyularkən, onun reallaşacağına şübhə ilə yanaşanlar, əslində, Azərbaycanın 21-ci əsrdə "Əsrin müqaviləsi" kimi daha bir tarixi uğura imza atacağına qısqanclıq edənlər də az deyildi. Ancaq Azərbaycanın, xüsusilə, ölkə Prezidenti İlham Əliyevin cəsarəti, iradəsi, son dərəcə uzaqgörən siyasəti nəticəsində bu layihə də uğurla icra olundu, Azərbaycan daha bir zəfərinə imza atdı. Baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb, həmçinin geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi, amma Azərbaycan bunu da bacardı, bunu da gerçəkləşdirdi. Cənab İlham Əliyevin də açılış mərasimində vurğuladığı kimi, "İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır…"

**- Cənub Qaz Dəhlizi Azərbaycana, bütövlükdə dünyaya nə verəcək? Bu layihənin məqsədi nədir?**

- Bilirsiniz, Cənub Qaz Dəhlizi hazırda fəaliyyətdə olan Bakı-Tbilisi-Ərzurum boru kəmərinin ixrac potensialını genişləndirməklə yanaşı, Türkiyədə TANAP və Avropada TAP qaz kəmərlərinin tikintisini özündə ehtiva edən qlobal transmilli layihədir. Bu layihə çərçivəsində hasil ediləcək təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya qədər 3500 kilometrdən artıq uzanan boru kəmərləri vasitəsilə çatdırılacaq. İlk qazın 2018-ci ilin sonlarında Gürcüstan və Türkiyəyə təchiz edilməsi planlaşdırılır. Avropaya isə qaz təchizatının Azərbaycanda dənizdə ilk qaz hasil edildiyi vaxtdan bir ildən bir qədər çox müddət keçdikdən sonra gerçəkləşəcəyi gözlənilir. Ümumiyyətlə, Cənub Qaz Dəhlizi boru kəməri elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü öz ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilər. Layihənin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndirilərək, Cənubi Qafqaz Boru kəməri (CQBK) və yeni tikiləcək TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Layihənin əsas məqsədi Avropaya qaz tədarükünün təhlükəsizliyinin təmin edilməsi və artırılmasıdır. Odur ki, bir neçə il öncə Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Trans-Anadolu Qaz Boru kəməri üzrə müqavilə imzalandı. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Vurğulayım ki, gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik.

Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulub və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Amma əminəm ki, bundan böyük həcmdə resurslarımız var. Gələcək kəşfiyyat və istismar işləri də bunu təsdiqləyəcək. Bu yerdə onu da xatırladım ki, Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir ki, onlar Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Yəni, bu layihənin timsalında geniş beynəlxalq əməkdaşlıq yaradılıb.

**- Ziyad müəllim, heç şübhəsiz ki, Cənub Qaz Dəhlizi də daxil olmaqla, bütövlükdə bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı.**

-Tamamilə, doğrudur. Ölkə prezidenti də çıxışında bu məqama xüsusi yer ayıraraq, bildirdi ki, bu layihələrin icra edilməsində Azərbaycan da daxil olmaqla, adları çəkilən 7 ölkənin birgə səyləri xüsusi yer tutur. Həmin ölkələrə və onların rəhbərliyinə bu əməkdaşlığa görə təşəkkürünü bildirən Azərbaycan prezidenti, eyni zamanda, Amerika Birləşmiş Ştatları hökumətinə də minnətdarlığını ifadə etdi. Qeyd etdi ki, Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub.

Biz bu dəstəyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və "Cənub Qaz Dəhlizi" layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynayıb.

Bununla yanaşı, cənab İlham Əliyev Böyük Britaniya hökumətinin həmişə Azərbaycanın yanında olduğunu söylədi, Avropa İttifaqının bu layihənin icrasında çox önəmli rol oynadığını bildirdi. Xatırlatdı ki, hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanıb. Heç təsadüfi deyil ki, Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son dörd il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Yəni, Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru, təbii ki, çox böyük yer tutur. Onu da bildirim ki, bütövlükdə bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının dəstəyi olmadan mümkün olmazdı. Odur ki, Azərbaycan prezidenti bu məsələyə dəstək olan, beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürünü bildirdi və qeyd etdi ki, onlar da bizə inanıb, öz maliyyə resurslarını ayırıblar. "Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi bütün borcları vaxtında qaytarır və qaytaracaq", - deyə Prezident İ.Əliyev fikirlərini tamamladı.

Bütün bunlar Cənub Qaz Dəhlizinin, eləcə də digər layihələrin nə dərəcədə böyük önəm və əhəmiyyət daşıdığını ortaya qoyur. Geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə və digər layihələr gələcəkdə nəinki energetika sahəsində, həmçinin bütün başqa sahələrdə Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək. Bu layihələr Azərbaycanın bölgədəki və dünyadakı yerini möhkəmləndirəcək, onun rolunu, nüfuzunu artıracaq. Bir sözlə, Azərbaycan xalqı və dövləti bu layihədən və digərlərindən gələn gəlirlər hesabına həm də öz iqtisadi inkişafını, öz sabit və təhlükəsiz yaşayışını daha da gücləndirmiş olacaq.

**- Yeri gəlmişkən, Cənub Qaz Dəhlizinin nə dərəcədə böyük önəm daşıdığını elə açılış mərasiminə olan diqqətdən də görmək mümkündür. ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavininin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisinin, Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibinin tədbirdə iştirakı, Türkiyə və Böyük Britaniyanın dövlət rəhbərlərinin təbrikləri buna misal göstərilə bilər.**

- Təbii ki, bu, belə də olmalıydı. Bu layihədən qazanan təkcə Azərbaycan deyil, bütövlükdə Avropa və dünyadır. Bu baxımdan, bu layihənin gerçəkləşməsinə, onun rəsmi açılış mərasiminə də diqqət gözlənilən idi və başqa cür ola da bilməzdi. Mən, xüsusilə, Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonun çıxışına və təbriklərinə toxunmaq istəyirəm. Çünki OPEC dünyada neft ixracı ilə bağlı ən mühüm təşkilatlardandır. Cənab Barkindo da çıxışında "Bu layihə bir ilham mənbəyidir", - deyərək, Azərbaycanın, eləcə də regionun və dünyanın bu layihədən qürur hissi duymalı olduğunu söylədi. O, bildirdi ki, bu layihə və onun artıq sürətlə inkişaf etməkdə olan fazası çoxmilyardlı kapital qoyuluşu layihəsidir. Həmçinin, qeyd etdi ki, bu layihə dünya miqyasında ən böyük enerji layihələrindən biridir və bu tərəfdaşlıq Cənub Qaz Dəhlizi ilə Xəzər dənizindən daha çox, qaz ehtiyatlarının nəql olunmasına imkan yaradaraq, qlobal enerji təhlükəsizliyinə, xüsusilə Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək.

Hesab edirəm ki, bunlar Cənub Qaz Dəhlizinin önəminə verilən ən gözəl, ən dəyərli yanaşmalardan biri və birincilərdəndir. Odur ki, bu layihənin açılışı ilə bağlı Azərbaycan xalqını, Azərbaycan dövlətini və ilk növbədə ölkə prezidentini təbrik edir, Azərbaycanın qarşıdakı dövrdə də daha böyük və yeni layihələrə uğurla imza atmasını arzulayıram. Bu gün dünya Azərbaycanın güclü iradəsini, qətiyyətini və dünya üçün nə qədər önəmli bir tərəfdaş olduğunu nümayiş etdirdi. Dünya bizə nə qədər lazımdırsa, Azərbaycan da bir o qədər dünyaya lazımdır. Dünya belə demək mümkünsə, Azərbaycana məhkumdur.

**Kamil HƏMZƏOĞLU**





# Azərbaycanda təhsil ölkəmizin dinamik inkişafı ilə addımlamalıdır



Mayın 26-da ADA Universitetində məzun günü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər.

ADA Universitetinin rektoru, xarici işlər nazirinin müavini, səfir Hafiz Paşayev dövlətimizin başçısına bu təhsil ocağının fəaliyyətinin genişləndirilməsi layihəsi ilə bağlı məlumat vermişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən ingilisdilli dövlət ali təhsil müəssisəsi olan ADA Universiteti müasir təhsil standartlarını əsas tutaraq qabaqcıl dünya təcrübəsini tətbiq edir, innovativ və qlobal dünyagörüşünə malik kadrlar hazırlayır.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə daha bir tədris ilinin uğurla başa çatdığını deyərək bildirmişdir ki, ADA Universitetində tələbə, müəllim və işçi heyətini 46 müxtəlif ölkədən olan insanların təşkil etməsi burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfə verir. Tələbələr bu təhsil ocağında müasir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın 60 aparıcı universiteti ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar.

Azərbaycan Prezidenti İlham Əliyev məzun günündə çıxış etmişdir. O, demişdir:

- Məzunlar üçün yeni dövr başlayır. Mən əminəm ki, universitetdə aldıqları biliklər onlara həyatda layiqli yer tutmaq üçün kömək edəcəkdir. ADA Universiteti Azərbaycanın aparıcı ali məktəblərindən biridir. Bu universitetdə təhsilin səviyyəsi çox yüksəkdir. Universitet həm ölkəmizdə, həm xaricdə böyük nüfuz qazanmışdır və bu gün burada səsləndi ki, universitetdə 41 ölkədən tələbələr oxuyur. Bu, özlüyündə bir göstəricidir. Onu göstərir ki, doğrudan da, ADA qısa müddət ərzində çox yüksək nüfuz qazanaraq ölkəmizin aparıcı ali məktəblərindən birinə çevrilmişdir.

ADA-da təhsil alan tələbələr əminəm ki, gələcəkdə ölkəmizin həyatında fəal rol oynayacaqlar, ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verəcəklər. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan tələbələrinin xaricdə təhsil almaları üçün müvafiq proqramlar qəbul edildi, vəsait ayrıldı və bizim gənclərimiz dünyanın aparıcı ali məktəblərinə ezam olundular. Bu proqramların çox böyük faydası oldu, minlərlə Azərbaycan gənci xaricdə yüksək təhsil alaraq Vətənə qayıdıblar və bu gün ölkəmizin inkişafında fəal rol oynayırlar. Ancaq, əlbəttə, əsas vəzifəmiz ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsilin səviyyəsi artsın və beynəlxalq standartlara cavab versin. ADA Universitetinin yaradılması bu məqsədi güdürdü. Bu gün tam əminliklə demək olar ki, burada tələbələrə verilən biliklər, təhsil ən yüksək standartlara uyğundur.

Təhsil hər bir dövlətin gələcəyidir. Bu sözlər dəfələrlə müxtəlif kürsülərdən səsləndirilib. Yəqin, ona görə ki, bu, həqiqətdir, bu, doğrudan da, belədir. Əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklər. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək, - mən inanıram ki, buna nail olacağıq, - onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir. Mən əminəm ki, bizim gənclərimiz məhz bu istiqamətdə öz fəaliyyətlərini davam etdirəcəklər. Mən bilirəm ki, bizim gənclərimizin mütləq əksəriyyəti dediyim meyarlara tam uyğundur.

Ölkəmizdə savadlılığın səviyyəsi təxminən 100 faizə yaxındır. Eyni zamanda, təhsillə bağlı olan islahatlar, yeniliklər, əlbəttə ki, öz nəticəsini verəcək və verir. Buna müəyyən vaxt, zaman lazımdır. Ancaq biz düzgün yoldayıq və əminəm ki, ölkəmizin uğurlu inkişafını güclü kadr potensialı təmin edəcək. Əsas məqsəd bundan ibarətdir və biz ADA-nın timsalında, digər aparıcı ali məktəblərimizin timsalında bunu görürük. Azərbaycanda təhsil ölkəmizin dinamik inkişafı ilə addımlamalıdır. Təhsilə göstərilən diqqət bizim büdcə xərclərimizdə də özünü büruzə verir. Büdcə xərclərimizin əsas hissəsi təhsillə və müdafiə potensialımızla bağlıdır. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq və müdafiə xərcləri, əlbəttə ki, prioritet məsələ olmalıdır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Ümid edirəm ki, təhsilimizin səviyyəsi də bu hədəfə yaxınlaşacaqdır.

# Bakıda XXV Beynəlxalq "Caspian Oil and Gas" konfransı işə başlayıb

Mayın 30-da Bakıda XXV yubiley Beynəlxalq "Caspian Oil and Gas" konfransı keçirilib.




Konfransın "Dayanıqlı gələcəyin inkişafı üçün əsas faktorlar: konsepsiya və innovativlik" adlı plenar sessiyasında Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo, Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) baş katibi Yuriy Sentyurin və Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə parlament nazirinin müavini Daisaku Hirakinin məruzələri dinlənilib.

Konfransda 49-dan artıq spiker öz məruzələri ilə çıxış etmişdir. Bu il konfransda aparıcı şirkətlərin 500-dən çox şirkət rəhbərləri, sənaye nazirliklərinin nümayəndələri, beynəlxalq və yerli ekspertlər iştirak edib. Konfrans aparıcı enerji və neft-qaz şirkətlərinin rəhbərlərini, eləcə də sənaye nazirliklərinin nümayəndələri və nüfuzlu sənaye mütəxəssislərini bir araya toplayaraq, neft-qaz sənayesinin inkişafı üzrə aktual məsələlərin müzakirəsi üçün geniş imkanlar yaradır. "Caspian Oil and Gas" konfransı Azərbaycanın Energetika Nazirliyi və SOCAR-ın dəstəyi, "Iteca Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilib.

# Daisaku Hiraki: Yaponiya Azərbaycanla Xəzərdə yeni yataqların birgə işlənməsində maraqlıdır

Bu sözləri mayın 30-da Bakıda keçirilən XXV yubiley Beynəlxalq "Caspian Oil and Gas" konfransının "Dayanıqlı gələcəyin inkişafı üçün əsas faktorlar: konsepsiya və innovativlik" adlı plenar sessiyadakı çıxışında Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə parlament nazirinin müavini Daisaku Hiraki deyib.



"Yaponiya şirkəti Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) və "Azəri-Çıraq-Günəşli" (AÇG) layihələrində səhmdardır. AÇG ilə bağlı yeni sazişin imzalanması və işlənmənin müddətinin 2050-ci ilədək uzadılması Yaponiyanın Xəzər regionu üzrə enerji strategiyası baxımından əhəmiyyət daşıyır. Bizim ölkə enerji təhlükəsizliyinin gücləndirilməsi və mənbələrin şaxələndirilməsində maraqlıdır. Yaponiya Xəzər regionu ilə yaxşı əlaqələr qurub və bu, geosiyasi əhəmiyyət daşıyır. Biz Azərbaycanla Xəzərdə yeni yataqların birgə işlənməsində maraqlıyıq", - deyə o bildirib.

# Bakıda XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi ilə tanış olublar.



Dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verilmiş, bildirilmişdir ki, bu il "Xəzər Neft və Qaz" sərgisinin yubileyi sərginin keçirildiyi ilk gündən bu tədbiri dəstəkləyən və onun təşəbbüskarı olan ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə təsadüf edir. Birinci sərgi 1994-cü ildə, elə həmin ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində keçirilib. O vaxtdan etibarən "Xəzər Neft və Qaz" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı platformaya çevrilib. Ötən dövrdə sərgilərdə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak edib. Hər il sərginin açılış mərasimində Prezident İlham Əliyevin iştirak etməsi bu beynəlxalq tədbirin yüksək statusunu bir daha təsdiq edir.

Builki sərgidə 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edir. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunur.

Fransanı builki sərgidə dünyada böyük nüfuza malik "Total" şirkəti təmsil edir. "Total" Azərbaycanda kəşfiyyat və hasilat işlərinə 1996-cı ildə başlayıb. 2009-cu ilin fevralında şirkət SOCAR ilə Xəzər dənizinin dərin sulu sahəsində yerləşən "Abşeron" bloku üzrə hasilat və pay bölgüsü sazişi imzalayıb. 2011-ci ildə şirkət tərəfindən qazma işləri aparılıb və kifayət qədər karbohidrogen ehtiyatları aşkarlanıb. Bu kəşf "Total"ın Azərbaycandakı fəaliyyətinin yeni mərhələsinin başlanmasına imkan verib.

Norveçin "Statoil" şirkəti yeni strategiyaya uyğun olaraq fəaliyyətini artıq "Equinor" adı ilə davam etdirir. Bu şirkət 1992-ci ildə Azərbaycan bazarına daxil olub. Həmin vaxtdan ölkəmiz bu şirkətin beynəlxalq inkişafında mühüm rol oynayıb.

"SOCAR Polymer" investisiya layihəsi son 40 il ərzində öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Şirkətin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilir. Bu il istismara verildikdən sonra zavodlar hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək.

Özbəkistanın "Uzbeknefteqaz" korporasiyası mütəmadi olaraq sərgidə iştirak edir. Bu qurum 200-dən çox şirkəti, o cümlədən 20 birgə müəssisəni, 6 səhmdar cəmiyyəti və bir sıra digər təşkilatları birləşdirən müasir, çoxpilləli korporasiyadır.

Sərgidə iştirak edən yerli "Baku Steel Company" MMC Qafqazın ən böyük metallurgiya zavodudur. Hazırda zavodun istehsal gücü 180 min ton olmaqla 114-245 diametrli tikişsiz, qoruyucu və ümumi təyinatlı borular istehsal edir. Şirkət Rusiya, İran, Türkiyə, Qazaxıstan, Gürcüstan, Ukrayna, Türkmənistan və digər ölkələrə öz məhsullarını ixrac edir.

SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verilmişdir. Bildirilmişdir ki, SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Mayın 29-da rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi layihəsində fəal tərəfdaşlardan olan SOCAR müasir dövrdə ölkəmizin neft strategiyasının uğurla reallaşmasına töhfə verir.

Növbəti dəfə sərgidə iştirak edən "Türkiyə Petrolları" "Əsrin müqaviləsi"nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərir. Bu qurum Azərbaycanda bundan sonra da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır.

BP şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Ötən dövrdə Azərbaycan Hökuməti ilə tərəfdaşlıq çərçivəsində BP-nin əməliyyatçısı olduğu dünya səviyyəli layihələr - "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", "Bakı-Tbilisi-Ceyhan" və "Cənub Qaz Dəhlizi" layihələri uğurla icra olunub. Ötən dövrdə "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə 33 milyard dollardan çox sərmayə qoyulub. 3,3 milyard barel neft və təqribən 32 milyard kubmetrdən çox səmt qazı hasil edilib.

Sərgidə, həmçinin İranın Təhsil, Tədqiqat və Mədəniyyət üzrə Akademik Mərkəzi, "Global Energy Azerbaijan" şirkəti, "Schulumberger" şirkəti, BOTAŞ-EQUİNER "Belneftekhim" şirkəti və "Saipem" şirkəti də fəal iştirak edirlər.

Prezident İlham Əliyev "Xəzər Neft və Qaz" sərgi-konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə "ITE Group Plc" şirkətinin baş məsləhətçisi Endryu Vuda və "ITE Group Plc" şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana "Dostluq" ordenini təqdim etmişdir.

Dövlətimizin başçısı "Xəzər Neft və Qaz" sərgi-konfransının 25 illiyi münasibəti ilə və ölkəmizdə sərgilərin təşkilindəki xidmətlərinə görə "İTECA Caspian" şirkətinin icraçı direktoru Fərid Məmmədova "Tərəqqi" medalını təqdim etmişdir.

# Cənub Qaz Dəhlizi fundamental sürətdə enerji landşaftını dəyişəcək

Bu sözləri mayın 30-da Bakıda keçirilən XXV yubiley Beynəlxalq "Caspian Oil and Gas" konfransının "Dayanıqlı gələcəyin inkişafı üçün əsas faktorlar: konsepsiya və innovativlik" adlı plenar sessiyasındakı çıxışında Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo deyib.



"İki ay ərzində artıq ikinci dəfədir ki, Azərbaycana səfər edirəm. Bakı neft sənayesinin beşiyi, sivilizasiyanın inkişafına təkan verən və öz inkişafı ilə seçilən bir şəhərdir. Azərbaycan neft və qaz sənayesinin sürətlə inkişaf etdiyi bir ölkədir. Bu ölkə 1994-cü ildə çox sərfəli neft müqaviləsi olan "Əsrin müqaviləsi"nin imzalanması ilə nüfuzlu beynəlxalq şirkətlərlə əməkdaşlığa başlayıb. Həmin vaxtdan indiyədək neft sənayesində kifayət qədər nəzərəçarpan artım müşahidə edilib. Hazırda investorlar da Azərbaycanın neft və qaz sektoruna mühüm töhfə verə biləcəyini dilə gətirir, ölkənin bu istiqamətdəki potensialını vurğulayır", - deyə OPEC-in baş katibi bildirib.

M.Barkindo qeyd edib: "Bu nailiyyətlər "Şahdəniz" yatağının fonunda əyanilik qazanır. Layihənin ikinci fazası - dünən rəsmi açılışı olan Cənub Qaz Dəhlizi ən iri enerji layihələrindən biridir. Bu layihə ölkə iqtisadiyyatının inkişafına, regiona və dünyaya müsbət töhfəsini verəcək. Cənub Qaz Dəhlizi fundamental surətdə bizim enerji landşaftımızı dəyişəcək".

# «QAFQAZ LİZİNQ» ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

31 dekabr 2017-ci il tarixə — *Azərbaycan Manatı ilə*

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Qeyri-maddi aktivlər | - | 3 563 |
| Torpaq, tikili və avadanlıqlar | 59 808 | 88 020 |
| Lizinq üzrə debitor borcları | 628 474 | 1 641 235 |
| Sair q/m debitor borcları (Verilmiş avanslar) | 1 965 | 11 212 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 322 573 | 2 737 115 |
| Digər aktivlər (Səhmlərin geri alınması üçün) | 2 250 000 | - |
| **CƏMİ AKTİVLƏR** | **3 262 820** | **4 481 145** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapital | 3 200 000 | 3 200 000 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | * 55 437 | 1 274 656 |
| **CƏMİ KAPİTAL** | **3 255 437** | **4 474 656** |
| **ÖHDƏLİKLƏR** | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | - | - |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | - | - |
| Qısamüddətli kreditor borcları | 7 383 | 6 489 |
| Sair qısamüddətli öhdəliklər | - | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **7 383** | **6 489** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3 262 820** | **4 481 145** |

Elşad Münsif
*İdarə heyətinin sədri*
*14 mart 2018-ci il*

Aybəniz Balakişiyeva
*Baş mühasib*
*14 mart 2018-ci il*

31 dekabr 2017-ci il tarixə — *Azərbaycan Manatı ilə*

| | 2017-ci il | 2016-cı il |
|---|---|---|
| Faiz gəlirləri | 28 705 | 430 334 |
| Faiz xərcləri | - | - |
| **Xalis faiz gəlirləri (zərəri)** | **28 705** | **430 334** |
| Əməliyyat gəlirləri | 40 120 | 147 124 |
| Əməliyyat xərcləri | (244 508) | (304 943) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **(175 683)** | **272 515** |
| Fövqəladə gəlirlər | 228 974 | - |
| Fövqəladə xərclər | (1 007) | (2 825 798) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **52 284** | **(2 553 283)** |
| Mənfəət vergisi | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **52 284** | **(2 553 283)** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | - | - |
| | - | - |
| Bir səhmə düşən mənfəət | - | - |

Elşad Münsif
*İdarə heyətinin sədri*
*14 mart 2018-ci il*

Aybəniz Balakişiyeva
*Baş mühasib*
*14 mart 2018-ci il*

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı ş.,
Q.Qarayev pr. 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Qafqaz Lizinq" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına**

**Rəy**

Biz **"Qafqaz Lizinq" Açıq Səhmdar Cəmiyyətinin** (bundan sonra Şirkət) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**
Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**
Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**23 may 2018-ci il**

**Namiq Abbaslı**

# Bank Silk Vey ATSC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| | Qeydlər | 2017 AZN | 2016 AZN |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Nağd vəsaitlər və Mərkəzi Bankda pul vəsaitləri | 5 | 48,140 | 19,449 |
| Digər banklardakı pul vəsaitləri | 7 | 12,580 | 4,153 |
| Müştərilərə verilmiş kredit və avanslar | 8 | 393,630 | 363,741 |
| Əmlak və avadanlıq | 9 | 3,431 | 2,329 |
| Qeyri-maddi aktivlər | | 448 | 296 |
| Digər aktivlər | 10 | 4,450 | 2,564 |
| **Cəmi aktivlər** | | 462,679 | 392,532 |
| **Öhdəliklər** | | | |
| Bank və maliyyə təşkilatlarından kredit ve depozitlər | 11 | 109,951 | 115,888 |
| Müştərilərdən depozitlər | 12 | 242,055 | 170,141 |
| Digər öhdəliklər | 13 | 4,084 | 1,513 |
| **Cəmi öhdəliklər** | | 356,090 | 287,542 |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 14 | 104,601 | 101,545 |
| Bölüşdürülməmiş mənfəət | | 1,988 | 3,445 |
| **Cəmi kapital** | | 106,589 | 104,990 |
| **Cəmi kapital və öhdəliklər** | | 462,679 | 392,532 |

| | Qeydlər | 2017 AZN | 2016 AZN |
|---|---|---|---|
| Faiz gəlirləri | 15 | 27,803 | 26,235 |
| Faiz xərcləri | 15 | (11,751) | (13,125) |
| **Xalis faiz gəlirləri** | 15 | 16,052 | 13,110 |
| Müştərilərə verilmiş kredit və avanslar üzrə ehtimal edilən zərərlər üçün ayrılmış ehtiyat | 8.1 | (7,214) | (14,856) |
| **Ehtimal edilən zərərlər üzrə ehtiyatlardan sonra faiz gəlirləri / (xərcləri)** | | 8,838 | (1,746) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir | 16 | 9,083 | 10,856 |
| Haqq və komissiya gəlirləri | 17 | 9,495 | 5,818 |
| Haqq və komissiya xərcləri | 28 | (2,605) | (1,444) |
| **Əməliyyat gəlirləri** | | 24,811 | 13,484 |
| Digər gəlirlər | 19 | 36 | 61 |
| Köhnəlmə və amortizasiya xərcləri | 20 | (570) | (525) |
| İnzibati və ümumi xərclər | 21 | (22,139) | (11,139) |
| **Vergidən əvvəlki illik mənfəət** | | 2,138 | 1,881 |
| Mənfəət vergisi | 22 | (539) | (335) |
| **İllik mənfəət** | | 1,599 | 1,546 |
| **Digər məcmu gəlirlər** | | | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | 1,599 | 1,546 |
| **PAY ÜZRƏ GƏLİR** | | | |
| Əsas və paylanmış | 29 | 2.35 | 2.28 |

# Bakcell eşitmə qüsurlu əlillər arasında futzal turnirinə dəstək verib



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti AFFA-nın və Sahə Futbol Federasiyaları İctimai Birliyinin dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı ilə eşitmə qüsurlu əlillər arasında futzal üzrə "Yaz turniri"nə dəstək göstərib.

18-22 may 2018-ci il tarixlərində Bakı şəhərində keçirilən "Yaz turniri"ndə eşitmə qüsurlu əlillərdən ibarət "Bakı", "Azəri", "Zirvə", "Şimşək" və "Ümid" komandaları iştirak edib.

Turnirin nəticəsində birinci yeri "Azəri" komandası, sonrakı yerləri müvafiq olaraq "Şimşək" və "Zirvə" kollektivləri tutub. "Azəri"nin üzvü Tural Muxtarov ən yaxşı oyunçu, "Zirvə"dən Şövkət Əskərov ən yaxşı qapıçı adına layiq görülüb. Rəqib komandalara 22 qol vuran Ülvi Fərəcli ("Şimşək" komandasının üzvü) turnirin ən məhsuldar oyunçusu olub.

"Bakcell"şirkəti 2007-ci ildən başlayaraq Əlillər Futbolu Federasiyasının futzal üzrə müxtəlif turnirlərinə dəstək göstərir.

Özünün genişmiqyaslı "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə "Bakcell" Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş mühüm layihələri həyata keçirir.

# Bakcell rouminqdə WhatsApp-ı pulsuz etdi

***3 AZN-dən başlayan qiymətə 40-dan çox ölkədə bol-bol meqabayt və pulsuz WhatsApp***

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti rouminq xidmətlərini abunəçilərə daha əlçatan və sərfəli etmək məqsədilə yeni rouminq paketlərini təqdim edib. Yeni paketlər sayəsində müştərilər xarici ölkələrə səyahət edərkən öz ailə üzvləri və yaxınları ilə ünsiyyətdə qala biləcəklər.

"Bakcell"in yeni "Rouminqdə İnternet" paketləri səyahət zamanı internetdən çox istifadə edən müştərilərin ürəyincə olacaq. Türkiyə, Gürcüstan, Rusiya, Almaniya və s. kimi 40-dan çox ölkədə təqdim olunan bu paketlər sayəsində Wi-Fi axtarmağa və ya yerli operatorun SİM kartını almağa ehtiyac qalmadı. Bakcell abunəçiləri ***gündəlik, həftəlik*** və ya ***aylıq*** "Rouminqdə İnternet" paketlərindən birini əldə edib öz səyahət təəssüratlarını Facebook, İnstagram və digər sosial şəbəkələrdə istədikləri qədər paylaşa biləcəklər. Bundan əlavə, "Rouminqdə İnternet" paketlərin istifadəçiləri WhatsApp-dan tam olaraq pulsuz istifadə edəcəklər (mətn və zənglər üçün):

| Paket | Trafik həcmi | Qiyməti |
|---|---|---|
| **Gündəlik** | **100 MB + Pulsuz WhatsApp** | **3 AZN** |
| **Həftəlik** | **1000 MB + Pulsuz WhatsApp** | **20 AZN** |
| **Aylıq** | **2000 MB + Pulsuz WhatsApp** | **30 AZN** |

"Bakcell"in yeni ***gündəlik, həftəlik*** və ***aylıq*** "Rouminqdə hamısı daxil" paketləri isə xaricdə olarkən bol meqabaytlar, çoxlu dəqiqə və SMS-lər sayəsində sərfəli qiymətə tam ünsiyyət sərbəstliyini təmin edir:

| Paket | Trafik, dəqiqə və SMS | Qiyməti |
|---|---|---|
| **Gündəlik "Rouminqdə hamısı daxil"** | **100 MB +10 dəq. + 10 SMS** | **5 AZN** |
| **Həftəlik "Rouminqdə hamısı daxil"** | **500 MB + 50 dəq. + 50 SMS** | **20 AZN** |
| **Aylıq "Rouminqdə hamısı daxil"** | **1000 MB + 100 dəq. + 100 SMS** | **30 AZN** |

"Rouminqdə hamısı daxil" paketləri 19 ölkədə təqdim olunmaqla, abunəçilərə öz yaxınları ilə tətil və səyahət həyəcanı və təəssüratları bölüşməyə imkan verir.

Yeni Rouminq paketləri vasitəsilə Bakcell abunəçiləri səyahət zamanı heç bir məhdudiyyət və məsafə hiss etməyəcəklər. Şirkət müasir rabitə xidmətləri istifadəçilərinin tələb və ehtiyaclarını qarşılamaq məqsədilə innovativ həllər təklif etməyə davam edəcək.

Ölkədə ən yaxşı mobil internet xidməti kimi öz təsdiqini tapmış 3G xidmətindən sonra, 5 may 2015-ci il tarixində Bakcell özünün 4G LTE xidmətinin kommersiya istifadəsinə verilməsini elan edib. Mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən 4G xüsusilə mobil olmaq və bütün məkanlarda internetə yüksək sürətli çıxış imkanı əldə etmək istəyən istifadəçilər üçün nəzərdə tutulub. Hazırda Bakı və Abşeron sakinləri ilə yanaşı, Gəncə şəhəri, Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının əhalisi də şirkətin təqdim etdiyi yüksək sürətli 4G internetindən istifadə edə bilirlər. 2018-ci ildə Bakcell özünün LTE şəbəkəsini ölkənin digər regionlarına doğru genişləndirir. Bakcell şirkəti Bakı metrosunda 4G xidməti təmin edən ilk mobil operatordur.

Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda "Best in Test" (sınaq nəticələrinə görə, ən yaxşı) adına layiq görülüb.

2017-ci ilin avqust ayında aparılan testlərin nəticələrinə əsasən, Bakcell Azərbaycanda ümumi şəbəkə təcrübəsinə görə ən yüksək göstəriciyə, Bakı və ölkənin digər böyük şəhərlərində isə sınaq nəticələrinə görə ən yaxşı mobil internet şəbəkəsinə malikdir.

Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

## «TCF» BOKT ASC-nin 31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

| *31 dekabr 2017-ci il tarixinə* | | | *Azərbaycan Manatı ilə* |
|---|---|---|---|
| | **Qeyd** | **31 dekabr 2017-ci il** | **31 dekabr 2016-cı il** |
| AKTİVLƏR | | | |
| Əsas vəsaitlər | 7 | 4 430 | 5 906 |
| Qeyri-maddi aktivlər | 8 | 88 263 | 132 395 |
| Uzunmüddətli maliyyə aktivləri | 9 | - | - |
| Müştərilərə verilmiş kreditlər | 10 | 5 283 361 | 4 807 949 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 20 647 | 2 346 843 |
| Banklarda yerləşdirilmiş depozitlər | 13 | - | - |
| Digər aktivlər | 11 | 12 347 | 29 043 |
| **CƏMİ AKTİVLƏR** | | **5 409 048** | **7 322 136** |
| KAPİTAL | | | |
| Səhmdar (nizamnamə) kapitalı | 17 | 300 000 | 300 000 |
| Kapital ehtiyatları | 18 | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (75 806) | 254 781 |
| **CƏMİ KAPİTAL** | | **224 194** | **554 781** |
| ÖHDƏLİKLƏR | | | |
| Maliyyə sektoru qarşısında öhdəliklər | 14 | 5 184 236 | 5 835 040 |
| Cari mənfəət vergisi üzrə öhdəliklər | 15 | - | - |
| Digər öhdəliklər | 16 | 618 | 932 315 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **5 184 854** | **6 767 355** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **5 409 048** | **7 322 136** |

Elşad Münsif
*İdarə Heyətinin sədri*
12 mart 2018-ci il

TCF

Aybəniz Balakişiyeva
*Baş mühasib*
12 mart 2018-ci il

| *31 dekabr 2017-ci il tarixinə* | | | *Azərbaycan Manatı ilə* |
|---|---|---|---|
| | **Qeyd** | **2017** | **2016** |
| Faiz gəlirləri | 19 | 580 692 | 1 374 612 |
| Faiz xərcləri | 20 | (383 091) | (417 874) |
| **Xalis faiz gəlirləri** | | **197 601** | **956 738** |
| Digər əməliyyat gəlirləri | 21 | 25 053 | 40 282 |
| Digər əməliyyat xərcləri | 22 | (493 484) | (717 460) |
| Fövqəladə xərclər | 23 | (59 757) | (29 865) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **(330 587)** | **249 695** |
| Mənfəət vergisi xərci | 24 | - | (55 912) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(330 587)** | **193 783** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Səhmdarların payı | | - | **193 783** |

Elşad Münsif
*İdarə Heyətinin sədri*
12 mart 2018-ci il

TCF

Aybəniz Balakişiyeva
*Baş mühasib*
12 mart 2018-ci il

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı ş.,
Q.Qarayev pr. 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

### MÜSTƏQİL AUDİTORUN HESABATI

**"TCF" Bank olmayan kredit təşkilatı Açıq səhmdar cəmiyyətinin səhmdarlarına**

**Rəy**

Biz "TCF" BOKT Açıq səhmdar cəmiyyətinin (bundan sonra Şirkət) 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**25 may 2018-ci il**

ANR Audit

# Azərbaycan indiyədək "Cənub Qaz Dəhlizi" layihələrinə 9 milyard dollar xərcləyib

"Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi üzrə görüləcək işlərin (ilk qazın hasilatına dair) 99,5 faizi, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) üzrə işlərin 100 faizi, Trans-Anadolu (TANAP) boru kəmərinin inşası üzrə işlərin 93 faizi, Trans-Adriatik (TAP) kəmərinin inşası üzrə işlərin 73 faizi icra edilib.




Bu barədə Bakıda keçirilən XXV "Caspian Oil and Gas" konfransında "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin (CQD) baş direktoru Əfqan İsayev deyib.
O qeyd edib ki, indiyədək Cənub Qaz Dəhlizinin tərkibi olan layihələrdə CQD-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar məbləğində investisiya qoyulub.

# "Cənub Qaz Dəhlizi"nin açılışı həqiqətən də dünya miqyaslı bir nailiyyətdir



Bunu BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Cons Bakıda keçirilən 25-ci Beynəlxalq "Xəzər Neft və Qaz" konfransında çıxışı zamanı deyib.
O bildirib: "Dünya səviyyəli layihələrdən danışarkən qeyd etməliyəm ki, dünən digər bir əlamətdar hadisənin şahidi olduq – Cənub Qaz Dəhlizinin rəsmi açılışı qeyd edildi. Bu, dəfedilməz görünən maneələrə baxmayaraq, bir çox ölkələrdə minlərlə insanın uzun illər ərzindəki zəhmətinin kulminasiya nöqtəsidir. Biz buna Azərbaycan hökuməti, "Şahdəniz" layihəsindəki tərəfdaşlarımız, SOCAR, "Türkiye Petrolleri", "Petronas", "Lukoil", NICO və "Cənub Qaz Dəhlizi", habelə daha geniş regiondakı çoxsaylı maraqlı tərəflərlə birlikdə nail olduq".
BP-nin regional prezidenti vurğulayıb ki, bu, həqiqətən də, dünya miqyaslı bir nailiyyətdir: "Bir daha bütün əməyi olan hər kəsi təbrik etmək istəyirəm. Əlbəttə ki, biz AÇG və "Şahdəniz" yataqlarından Azərbaycan hökuməti, tərəfdaşlarımız və Azərbaycan xalqının xeyrinə, təhlükəsiz və etibarlı şəkildə neft və qaz hasilatını davam etdirəcəyik. Hər iki yataq üçün də əsrin ortasınadək davam edən işlənmə planımız var".

# SOCAR qlobal transmilli korporasiyaya çevrilib

Bunu SOCAR-ın prezidenti Rövnəq Abdullayev 25-ci Beynəlxalq Neft və Qaz konfransı zamanı deyib.
O bildirib ki, SOCAR-ın bu nailiyyətlərinin əsasını qoyan səhifə 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi üzrə "Əsrin müqaviləsi"nin imzalanması oldu:
"Azəri-Çıraq-Günəşli" blokunun işə başlamasından Azərbaycan 132 milyard dollardan çox xalis mənfəət əldə edib. Hasilat 446 milyon ton neft təşkil edib. "Şahdəniz" yatağından 91 milyard kubmetr qaz və 23 milyon ton kondensat hasil edilib".
R.Abdullayev, həmçinin "Cənub Qaz Dəhlizi"nin işə salınmasının SOCAR-ın mövqeyinin möhkəmləndirilməsi üçün əhəmiyyətindən danışıb:



"İyun ayında TANAP qaz kəmərinin 0 mərhələsi işə salınacaq, 1-ci mərhələ isə 2019-cu ilin sonunadək hazır olacaq. Avropa ən perspektivli qaz bazarıdır və 2020-ci ildə TAP qaz kəmərinin işə salınması ilə Azərbaycan qazı bu bazara daxil olacaq".

# 700 bal toplayan abituriyent: "UNEC uğrunda rəqabət güclüdür, ən yüksək nəticəni göstərməliydim"

Dövlət İmtahan Mərkəzinin II ixtisas qrupu üzrə keçirdiyi qəbul imtahanlarında 700 bal toplayan Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın şagirdi Cahan Həşimzadə "UNEC-də 1 gün" layihəsində iştirak edib.
UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbində maliyyə ixtisası üzrə təhsil almaq istədiyini bildirən Cahan Həşimzadə universitetə hazırlaşdığı gündən hədəfinin UNEC olduğunu açıqlayıb: "UNEC-in nailiyyətlərini yaxından izləyirəm. Seçimimin UNEC olmasının səbəbi çoxdur. Burada təhsilin daha keyfiyyətli olduğunu düşünürəm, imtahanların şəffaf və obyektiv təşkil olunması məni cəlb edir. Universitetə 600-dən yüksək bal toplayaraq qəbul olunan hər kəsə və imtahan sessiyasında fakültə fərqi olmadan hər kurs üzrə ən yüksək nəticə göstərən 15 tələbəyə xüsusi təqaüd verilməsi əladır. Bilirəm ki, 4 il ərzində 2 diplomu ancaq




UNEC-də qazana bilərəm. Valideynlərim də UNEC-i tövsiyə edir. Bir sözlə, mənim arzum sadəcə tələbə adını deyil, UNEC tələbəsi adını qazanmaq olub. Son iki il ərzində ən yüksək nəticə göstərən abituriyentlərin seçimi də məhz UNEC idi, hədəfim uğrunda rəqabətin güclü olduğunu bilirdim, ən yüksək nəticəni göstərməliydim. Çalışdım və bacardım!"
C.Həşimzadə ötən tədris ilində 700 bal toplayaraq UNEC-ə qəbul olan Cavad Əliyev və Arzu Məmmədzadə ilə də görüşüb. UNEC-in tələbələri ona beynəlxalq və ikili diplom proqramları, Elektron Universitet Modeli, tədris prosesi barədə ətraflı məlumat veriblər. Bildiriblər ki, UNEC dünyanın qabaqcıl universitetləri olan London Universiteti/London İqtisadiyyat Məktəbi və Fransanın Monpelye Universiteti ilə ikili diplom proqramı həyata keçirir.
C.Həşimzadə ilə birlikdə imtahanlardan 600-dən yüksək bal toplayan dostları da UNEC-in bir günlük tələbələri olublar.
C.Həşimzadə DİM-in keçirəcəyi ikinci imtahanlara qatılacaq dostlarına kömək etdiyini də bildirib.
Onlar ingilis dilində iqtisadiyyata giriş fənnini dinləyiblər.
Beynəlxalq İqtisadiyyat Məktəbində unudulmaz bir gün keçirdiyini bildirən Cahan Həşimzadə və dostları yeni tədris ilinə UNEC-də başlayacaqlarını bildiriblər.

# «Sahibkarlar günü»nün qeyd edilməsi özəl sektora verilən diqqətin göstəricisidir





"Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, qanunvericiliyin təkmilləşdirilməsi, şəffaf inzibati tənzimləmə, dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, sahibkarların hüquqlarının və qanuni mənafelərinin etibarlı müdafiəsi təmin edilir. İqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişafının dəstəklənməsi dövlət başçısının daim diqqətindədir və bu istiqamətdə yeni iqtisadi islahatlar paketi reallaşdırılır. Bu fikri iqtisadiyyat naziri Şahin Mustafayev mayın 25-də İqtisadiyyat Nazirliyinin və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının, sahibkarların, ictimai birliklərin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarların iştirakı ilə "Sahibkarlar günü"nə həsr olunan konfransında qeyd etmişdir.

O bildirmişdir ki, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilədək dayandırılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin sayı əhəmiyyətli dərəcədə azaldılıb, prosedurlar sadələşdirilib və lisenziyaların elektron qaydada verilməsi üçün "Lisenziyalar və icazələr" portalı istifadəyə verilib, investisiyaların və ixracın təşviqi mexanizmləri tətbiq olunur, yerli istehsalın dəstəklənməsi üçün kompleks və ardıcıl tədbirlər həyata keçirilir, dövlət satınalmalarında yerli istehsala üstünlük verilir. Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb, vergi və gömrük prosedurları sadələşdirilib. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində son 15 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə, sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə artıb, özəl bölmənin payı artaraq ÜDM-də 84 faizi, məşğulluqda isə 75 faizi ötüb, 90 mindən çox müəssisə yaradılıb.

Görülmüş tədbirlər beynəlxalq hesabatlarda da öz müsbət əksini tapır. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatlarında Azərbaycan 2005-ci ildən 2017-ci ilədək olan dövrdə 69-cu yerdən 35-ci yerə yüksəlib və 2009-cu ildən indiyə kimi MDB-də liderliyini qoruyub saxlayır. "Doing Business 2018" hesabatında Azərbaycan ötən illə müqayisədə 8 pillə irəliləyib və 190 ölkə arasında 57-ci pillədə qərarlaşıb, Avropa və Mərkəzi Asiya regionunda 4 və daha çox islahat aparan 3 ölkədən biridir.

İqtisadiyyat naziri qeyd edib ki, qeyri-neft sektorunda istehsal və ixrac potensialının artırılması məqsədilə Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları, Mingəçevir, Pirallahı və Milli Elmlər Akademiyasının yüksək texnologiya parkları, Neftçala, Masallı, Hacıqabul və Sabirabad sənaye məhəllələrinin yaradılması istiqamətində əhəmiyyətli işlər görülüb, tikintisi tamamlanmış sənaye zonalarında müasir standartlara uyğun müəssisələr fəaliyyətə başlayıb. Həmçinin, 2,5 milyard manatlıq investisiya qoyuluşunu nəzərdə tutan 271 layihə üçün İnvestisiya Təşviqi Sənədi verilib. Artıq bu layihələrin 130-u üzrə müəssisələr fəaliyyətə başlayıb. Hazırda 30 rayon üzrə 191,8 min hektar ərazidə 45 aqroparkın yaradılması təşviq olunur. Xaçmaz, Şəmkir və Cəlilabad aqroparklarında 1-ci mərhələ üzrə işlər başa çatıb. 2018-ci ildə 15 aqroparkın istifadəyə verilməsi gözlənilir.

İndiyədək 35 mindən çox sahibkara 2,2 milyard manatadək güzəştli kredit verilib. 2018-ci ildə isə qaytarılmış kreditlər hesabına sahibkarlara minimum 170 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Ölkəmizin xarici iqtisadi əlaqələrinin genişləndirilməsində ixrac təşviqi mexanizmləri xüsusi əhəmiyyət kəsb edir və indiyədək xarici ölkələrə 13 ixrac missiyası təşkil olunub, sahibkarlara 4,6 milyon manat ixrac təşviqi ödənilib, ölkəmiz 11 beynəlxalq sərgidə "Made in Azerbaijan" vahid ölkə stendi ilə təmsil olunub. Sahibkarlardan bazar araşdırmalarının aparılması üçün 50-yə yaxın sifariş daxil olub və artıq 12 bazar araşdırması aparılıb. Belarusda Azərbaycan Ticarət Evi artıq 1 ildən çoxdur ki, sahibkarların istifadəsindədir. Latviya və Ukraynada da Azərbaycan ticarət evlərinin yaradılması işləri yekunlaşmaq üzrədir. Çin, Rusiya, BƏƏ və Polşada Azərbaycanın ticarət nümayəndələri təyin edilib. Dövlət-özəl əməkdaşlığının genişləndirilməsi üçün 15 istehsalçılar və ixracatçılar assosiasiyası, İxracatçılar Klubu yaradılıb. Yerli istehsalının potensialının yüksəldilməsi və ixracın dəstəklənməsi tədbirləri nəticəsində qeyri-neft ixracı 2017-ci ildə 24,4 faiz, 2018-ci ilin I rübündə isə 35 faizə yaxın artıb. Eyni zamanda, Azərbaycanın tranzit potensialının yüksəldilməsi məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi istifadəyə verilib ki, bu da sahibkarlar üçün geniş imkanlar açır, özəl bölmənin fəaliyyətini stimullaşdırır. İqtisadiyyat naziri sahibkarlara göstərdiyi böyük diqqət və qayğıya, yaradılan əlverişli şəraitə görə dövlət başçısına bir daha minnətdarlığını bildirib, iş adamlarını "Sahibkarlar Günü" münasibətilə təbrik edib.

Sonra sahibkarlığın inkişafına həsr olunmuş "Dayanıqlı inkişaf. Güclü sahibkarlıq" filmi nümayiş olunub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə dövlət başçısının rəhbərliyi ilə son dövrlərdə ölkəmizdə sahibkarlıq sahəsində həyata keçirilən effektli islahatlar və qəbul edilən qanunvericilik aktlarının sahibkarlığın inkişafında önəmli rolunu diqqətə çatdırıb, özəl bölmənin və biznes mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər barədə fikirlərini bölüşüb.

Sahibkarlarla bağlı xüsusi günün qeyd edilməsinin ölkədə biznes mühitinə, özəl sektora verilən böyük önəmin göstəricisi olduğunu bildirən vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan dəyişikliklərin başlıca prinsipləri, vergiödəyiciləri ilə münasibətdə şəffaflığın təmin olunması, onların qarşılaşdığı məsələlərin həll olunması istiqamətində görülən işlər barədə danışıb.

Kənd təsərrüfatı naziri İnam Kərimov çıxışında kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən tədbirlərdən, aqrar sahənin inkişafında sahibkarlığın rolundan bəhs edib, Azərbaycan dövlətinin daim sahibkarlara dəstəyini davam etdirdiyini vurğulayıb.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev tədbirdəki çıxışında dövlət başçısının rəhbərliyi ilə gömrük sahəsində həyata keçirilən islahatlar, həyata keçirilən tədbirlərin iqtisadiyyatın və ticarətin inkişafındakı rolu, gömrük orqanlarının modernləşdirilməsi, gömrük işinin daha səmərəli təşkili istiqamətində həyata keçirilən innovativ tədbirlər barədə məlumat verib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev bildirib ki, dövlət başçısı tərəfindən "Sahibkarlar Günü"nün qeyd edilməsi ilə bağlı Sərəncamı özəl bölməyə ölkə iqtisadiyyatında əsas prioritet istiqamətlərdən biri kimi böyük önəm verildiyinin daha bir nümunəsidir. Səttar Möhbalıyev sahibkarlıq subyektlərində işçilər üçün əlverişli və təhlükəsiz əmək şəraitin yaradılmasının əhəmiyyətini, sosial məsuliyyətin vacibliyini, sahibkarların sosial məsələlərin həllində mühüm rol oynadığını vurğulayıb.

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qeyd edib ki, dövlət başçısının özəl bölmənin inkişafına göstərdiyi dəstək sahibkarların daha yaxşı işləməsində, ölkə iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun artırılmasında önəmlidir. Azərbaycanın biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahat aparan ölkələrdən olduğunu diqqətə çatdıran Məmməd Musayev, qüdrətli və müasir Azərbaycanın davamlı inkişafı üçün sahibkarların da çox işlər görməli olduğunu qeyd edib və bu sahədə konfederasiyasının görəcəyi işlər barədə məlumat verib.

Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov kiçik və orta sahibkarların fəaliyyətinin əlaqələndirilməsi, onlara göstərilən dəstəyin ünvanlılığının təmin edilməsi və bu sahənin inkişafının stimullaşdırılması məqsədilə yaradılmış agentliyin fəaliyyətinin təşkili istiqamətində tədbirlərin görüldüyünü, qurumun KOS-lara dəstək tədbirləri barədə danışıb, göstərilən xidmətlərin bir məkanda – "Kiçik və Orta Sahibkarlıq Evi"ndə birləşdirəcəyini qeyd edib.

Sonra Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti və sahibkarlarla iş sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxunub.

Konfransın sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub.

# Azərbaycan Tikinti Materialları Assosiasiyasının sədri, "Mətanət A" Şirkətinin prezidenti Elxan Bəşirovdan təklif: "Sahibkarlar hər il hesabat verməlidir"




Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri, "Mətanət A" şirkətinin prezidenti Elxan Bəşirov Sahibkarlar Gününə həsr olunmuş konfransda maraqlı təkliflərlə çıxış edib. Onun sözlərinə görə, ölkəmizdə 25 aprel tarixinin Sahibkarlar Günü kimi qeyd olunması möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iş adamlarına böyük diqqətinin göstəricisidir. Sahibkarlar bu məsuliyyəti dərk etməlidirlər: "Mən istər İqtisadiyyat Nazirliyi, istərsə də Assosiasiyaların saytlarında hesabat bölümünün yaradılmasını təklif edirəm. Sahibkarlar hər il 25 aprel tarixində öz fəaliyyətləri ilə bağlı hesabatları ora yerləşdirilsinlər. Nəticədə, hər şirkətin bir il ərzində Azərbaycan Respublikasının iqtisadiyyatına necə töhfə verdiyi məlum olacaq".

Cənab Bəşirov çıxışında Azərbaycanda sahibkarlığın genişləndirilməsi istiqamətində böyük işlərin görüldüyünə diqqəti yönəldərək, qeyri-neft sektorunun sürətlə inkişaf etdiyini bildirib: "Cənab Prezident Nazirlər Kabinetinin 1-ci rübünün yekunlarına həsr olunan konfransda bir daha söylədi ki, 2018-ci ildə islahatlar olacaq və bu il də qeyri-neft sektorunun inkişafı istiqamətində bütün məsələlər prioritetliyini qoruyub saxlayacaq". Elxan Bəşirov, həmçinin qeyd edib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə "investisiya təşviqi sənədi"nin verilməsi qaydalarını təsdiqlədikdən sonra müxtəlif sənaye sahələrinə milyardlarla manat dəyərində investisiya yatırılıb: "O cümlədən bizim, "Mətanət A" şirkəti də cənab prezidentin qarşısında 4 böyük zavodun tikintisini öz öhdəsinə götürüb və onların fəaliyyətini bir təşviq sənədi əsasında reallaşdırır, bununla da milyonlarla vəsaitə qənaət edir. Bu qənaət bizim zavodların rentabelli işləməsinə, eyni zamanda, götürdüyümüz kreditin geri qaytarılmasına öz töhfəsini verir".

Cənab Bəşirov şirkətin son nailiyyətlərindən də söz açıb. Xüsusilə, tikintisi ötən il başa çatdırılan Qazax əhəng zavodunun fəaliyyətinə toxunaraq, bu zavodun istehsal etdiyi əhəngin regiondakı rəqiblərini xeyli geridə qoyduğunu vurğulayıb. Elxan Bəşirovun sözlərinə görə, şirkətin yaxın perspektiv üçün də böyük ümidlər vəd edən planları var: "Biz 2019-cu ilin axırına mineral yun zavodunu istifadəyə verəcəyik. Artıq bununla bağlı Almaniyanın ən məşhur şirkətlərindən biri ilə müqavilə bağlamışıq. İlkin ödənişlər edilib, bütün texnologiyalar, avadanlıqlar sifariş verilib, vaxtında Azərbaycana gətiriləcək. Biz Hacıqabulda da maşınqayırma istiqamətli böyük bir layihə həyata keçirəcəyik. Bu layihə tikinti avadanlıqlarının istehsalını gerçəkləşdirəcək", – deyə Elxan Bəşirov əlavə edib.

# Başqırdıstanda Azərbaycan kapitalının iştirakı ilə 6 müəssisə fəaliyyət göstərir



Başqırdıstan ərazisində Azərbaycan kapitalının iştirakı ilə kənd təsərrüfatı, mehmanxana biznesi, ictimai iaşə, inşaat və ticarət sahələrində 6 müəssisə fəaliyyət göstərir. Bu barədə Bakıda səfərdə olan Başqırdıstan Baş nazirinin müavini Fərhad Səmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin görüşündə bildirilib. Nümayəndə heyətinin səfər proqramında Azərbaycan Respublikasının hökumətində və Rusiyanın Bakıdakı səfirliyində görüşlər, həmçinin "Xəzər Neft və Qaz" Beynəlxalq sərgisində iştirak nəzərdə tutulub.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov ilə görüşdə Başqırdıstan nümayəndə heyətinin üzvləri bu sahədə qarşılıqlı əlaqələrin perspektivlərini müzakirə ediblər. Azərbaycan tərəfi Başqırdıstanda istehsal olunan energetika avadanlığında və neft kimyası sahəsində texnoloji yeniliklərdə maraqlı olduğunu bildirib. Nazir bu ilin oktyabrında Ufada keçiriləcək Rusiya Enerji Forumunda iştirak barədə dəvəti qəbul edib.

Azərbaycan və Başqırdıstanın sənaye sahəsində əməkdaşlıq istiqamətləri iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov ilə görüşdə də nəzərdən keçirilib. Söhbət əsasən Azərbaycan ərazisində neft avadanlıqları və kaustik soda istehsal edən birgə müəssisələrin yaradılmasından gedib. Bundan başqa, əczaçılıq və kimya sənayesi məhsullarına tələbat mövcuddur. Başqırdıstan nümayəndə heyətinin rəhbəri Fərhad Səmədov qeyd edib ki, respublika neft kimyası və əczaçılıqda güclü istehsal imkanlarına və elmi potensiala malikdir.

Dövlət Komitəsinin məlumatına görə, 2017-ci ildə Başqırdıstan və Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi təxminən 18 milyon dollar olub. Başqırdıstan Azərbaycana oduncaq məmulatı, kimya sənayesi məhsulları, neft və qaz sənayesi üçün avadanlıq, qara metal və bunlardan hazırlanan məhsullar, şüşədən hazırlanan məhsullar, kənd təsərrüfatı məhsulları və ərzaq malları göndərir. Azərbaycandan isə bu ölkəyə kənd təsərrüfatı məhsulları, ərzaq və digər mallar idxal olunur.

# Hazırda Dünya Bankının dəstəyi ilə Azərbaycanda 9 layihə icra olunur



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayevin Azərbaycanda səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşündə deyilib.

Görüşdə Azərbaycan və Dünya Bankı arasında əlaqələrin mövcud vəziyyəti və əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Nazir Şahin Mustafayev Azərbaycanın Dünya Bankı ilə 25 ildən çoxdur ki, əməkdaşlıq etdiyini, ölkəmizin bu əlaqələrin genişlənməsində maraqlı olduğunu vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan və Dünya Bankı arasında əməkdaşlıq çoxşaxəlidir, infrastruktur, kənd təsərrüfatı, nəqliyyat və sair sahələri əhatə edir. Dünya Bankının maliyyə və texniki dəstəyi ilə müvafiq sahələrdə reallaşdırılan layihələr bu sahələrin inkişafında əhəmiyyətli rol oynayır. Şahin Mustafayev bərk məişət tullantılarının vahid idarəçiliyi, Trans-Qafqaz Nəqliyyat Dəhlizində (TRACECA) yük daşımaları və logistika fəaliyyətinin təkmilləşdirilməsi və Dünya Bankı ilə birgə həyata keçirilən digər layihələrin əhəmiyyətini vurğulayıb, özəl sektora dəstəyin davam etdirilməsi, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi ilə əməkdaşlığa dair təkliflərini bildirib. Qeyd edilib ki, bərk məişət tullantılarının vahid idarəçiliyi layihəsi çərçivəsində görülən işlər ölkəmizdə səfərdə olan xarici nümayəndə heyətləri tərəfindən də yüksək qiymətləndirilir.

Şahin Mustafayev, həmçinin Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, 2018-ci ilin ilk dörd ayında ticarət dövriyyəsinin, qeyri-neft ixracının, eləcə də strateji valyuta ehtiyatlarının artdığını vurğulayıb.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Ötən il Dünya Bankının Azərbaycanla əməkdaşlığının 25 illiyinin qeyd olunduğunu vurğulayan M.Tembon əlaqələrin ildən-ilə genişləndiyini bildirib. Hazırda bankın dəstəyi ilə Azərbaycanda 9 layihənin icra olunduğunu deyən Mersi Tembon yeni əməkdaşlıq istiqamətlərinə dair fikirlərini bölüşüb.

# Yaponiyanın Azərbaycanın enerji sektorunda uzunmüddətli fəaliyyəti üçün geniş imkanları var

XXV Xəzər Beynəlxalq Neft və Qaz Sərgi-Konfransı çərçivəsində energetika naziri Pərviz Şahbazov Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə parlament nazirinin müavini Daisaku Hiraki ilə görüşüb.

Nazirlikdən bildirilib ki, görüşdə iki ölkə arasında iyirmi ildən artıq bir müddəti əhatə edən enerji əməkdaşlığının Azərbaycan və Yaponiya əlaqələrinin inkişafında rolu yüksək qiymətləndirilib. Daisaku Hiraki Yaponiyanın ITOCHU və INPEX şirkətlərinin nümunəsində Azərbaycanın neft-qaz sektorunda uğurlu əməkdaşlığın yeni layihə və imzalanmış sənədlərlə möhkəmləndiyini deyib. Onun sözlərinə görə, "Azəri-Çıraq-Günəşli" (AÇG) ilə bağlı yeni sazişin imzalanması Yaponiyanın növbəti onilliklərdə Xəzər regionunda fəaliyyətinin davamlılığını təmin edən mühüm hadisədir.

Energetika naziri Yaponiyanın ölkəmizin enerji sektorunda uzunmüddətli fəaliyyət dairəsinin genişləndirilməsi üçün geniş imkanların olduğunu qeyd edib. SOCAR ilə Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyinin Neft, Qaz və Metallurgiya Korporasiyası (JOGMEC) arasında Əməkdaşlıq Memorandumunun imzalanmasını bu istiqamətdə atılan mühüm addım kimi dəyərləndirib. Nazir, həmçinin Azərbaycanın bərpa olunan enerji mənbələri ilə bağlı hədəfləri barədə məlumat verərək, bu sahədə Yaponiya ilə təcrübə mübadiləsinin vacibliyindən danışıb. Bildirilib ki, enerji sahəsində birgə əldə edilmiş nailiyyətlərin davamlı olması hər iki ölkə iqtisadiyyatına töhfə verəcək.

# İbrahimbəyov sindromu: Ayaz Salayev tənqid edir

"Bakinski raboçi" qəzetinin 23 may tarixli nömrəsində tanınmış kinorejissor Ayaz Salayevin "Rüstəm İbrahimbəyov və onun ermənilərin müsibətlərinə görə azərbaycanlıların təqsirkar olması haqqında filmi" sərlövhəli məqaləsi dərc olunub. Qaynar.info "Qafqaz.info"ya istinadla həmin məqalənin tərcüməsini təqdim edir:





Azərbaycan haqqında yazanlar çox vaxt bizim səriştəsizliyimizə və ya qətiyyətsizliyimizə ümid edirlər. Belələri düşünürlər: ya heç nə başa düşməyəcəklər, ya da cavab verməyəcəklər...

"Qafqaz üçlüyü" filminin (2015, rejissorlar - Eldar Şengelaya, Fuad İbrahimbəyov, ssenari müəllifi Rüstəm İbrahimbəyov) yaradılmasından iki il sonra mən bu filmi təsadüfən gördüm, başa düşdüm və cavab verirəm.

Filmin proloqunda uşaqlar qayadan suya tullanırlar. Onlardan biri - ən qoçağı qorxaq dostunu ürəkləndirir. Az sonra məlum olur ki, bu qorxaq azərbaycanlı, qoçaq, həm də filmin baş qəhrəmanı isə Bakı ermənisidir. O böyüyəcək, yüksək ixtisaslı, nəcib və gözütox həkim-oftalmoloq olacaq. O, öz həkimlik məharətini Moskvada nümayiş etdirir, onun oğlu, istedadlı aktyor isə Bakıda, ögey atanın ailəsində Azərbaycan soyadı altında yaşamaqda davam edir. O da Moskvaya köçüb getməyə hazırlaşır, bir tamaşada iştirak edir, bu tamaşa onun aktyor taleyini həll etməlidir. Nəcib həkimin miras alması üçün hansı səbəbdənsə çox vacibdir ki, onun bioloji oğlu təcili surətdə özünün əsl erməni soyadını qaytarsın.

Ən dəhşətli hadisələr bundan sonra başlanır.

Azərbaycanlı qəddar kənd uşaqları haradansa bu zavallı aktyorun etnik mənşəyi barədə öyrənərək, onu itələyib quyuya salır və daşa basırlar - ekranda erməni ziyalıların qaniçən vəhşi türklərin əlindən çəkdiyi əbədi əziyyətlərin obrazı canlanır.

Oğlunun itməsindən xəbər tutan ata qəhrəmancasına sərhədi keçir və uşaqlıqda dostluq etdiyi aciz oğlanın yanına qonaq gəlir. Düzdür, artıq həmin oğlan böyük kişidir, Azərbaycanda neft ehtiyatlarının tükənməsi barədə uzaqgörənlik etdiyinə görə vəzifədən qovulub. Qəzəblənmiş azərbaycanlılar dərhal həmin nəcib erməninin gizləndiyi evin ətrafında toplaşır. Burada televiziya müxbiri də var - aydındır ki, o, erməni talanlarına həvəskar olan bakılıların quracağı linç məhkəməsini çəkmək üçün gəlib...

...Hər halda yaşlı bədbəxt həkimi döyə bilirlər. Sonda bunu sərhəd xidmətinin məmuru aeroportda edir. O, həkimi döyməkdən ləzzət alır, aşkar görünür ki, bu, onun çoxdankı arzusu imiş.

Bircə bunu əlavə etmək qalır ki, haqqında danışdığımız filmə erməni kinematoqrafçılarının heç bir aidiyyəti yoxdur. Bu "dostluq" filminin rejissoru gürcü kinosunun az qala klassiki sayılan və vaxtilə Bakıda 26 komissar haqqında filmlə yadda qalmış klassik Nikolay Şengelayanın oğlu Eldar Şengelayadır.

Bu rejissor Abxaziya mövzusunda heç vaxt buna oxşar film çəkməzdi. Amma onun özünə haqq qazandırması üçün bəhanəsi var - filmin ssenari müəllifi azərbaycanlı məşhur yazıçı, dramaturq və ssenarist Rüstəm İbrahimbəyovdur.

Yeri gəlmişkən, filmdə döyülmüş aktyor məhz İbrahimbəyovun pyesi əsasında hazırlanan tamaşada oynamalıdır. Üstəlik, ssenari müəllifi Rüstəm İbrahimbəyov özü qəhrəmanlarından birinin dili ilə filmdə öz pyesini tərifləyir (yadımdadır, bir dəfə o, Bakıda keçirilən kinofestivalda özü-özünə mükafat təqdim etmişdi).

Yazıçı İbrahimbəyovun mənsub olduğu xalq iyirmi beş ildir ki, işğal altındakı əzəli torpaqlarının qaytarılması arzusu ilə yaşayır. O, öldürülmüş, qanlı əllərini və ayaqlarını uzatmış azərbaycanlı uşaqların fotoşəkillərini görməyə bilməzdi. Bu gün yazıçı Rüstəm İbrahimbəyovu sənətkar kimi narahat edən bir problem var - erməninin Bakıda rahat və təhlükəsiz yaşaması.

Özü də filmdən göründüyü kimi, bu insan azərbaycanlıları o qədər də sevmir.

O, çılğın vəziyyətdə imzaladığı "antierməni məqaləni" lənətləyir. O, Bakıda özünü çox həyasızcasına aparır, çünki onun fikrincə, azərbaycanlılar aqressiv olsalar da, qorxaqdırlar. Onlar hətta əllərinə düşmüş gürcünün də üstünə dəstə ilə hücum çəkir, digərləri döyülən qocanın yanından sayınmazyana ötüb keçirlər (yeri gəlmişkən, filmin finalında məlum olur ki, həmin gürcü döyülməkdən ölüb).




Filmdə hətta bir-birinə yaxın insanların münasibətləri də ən adi mənəviyyatdan və insaniyyətdən uzaqdır. Gənc aktyor bircə anda onu böyüdüb boya-başa çatdırmış, tərbiyə etmiş insanı satmağına görə, demək olar ki, vicdan əzabı çəkmir, onun atalığı isə əsla təəssüflənmir ki, özünün oğlu hesab etdiyi oğlan birdən-birə təzə atasının tərəfinə keçib. Üstəlik, hətta buna sevinir də: "Axır ki, mənim oğlum müdafiə olunacaq".

Həqiqətən, filmin müəlliflərinin bizə Azərbaycan kimi qələmə verdikləri - nazirdən başlamış aeroportdakı həyasız qeydiyyatçıya qədər hamının əclaf olduğu, ac qalmağa razı olduğu, amma təki qoca gürcünü dəstə ilə döyüb öldürmək imkanı verilməsini istəyən insanların dünyasında heç kəs müdafiə oluna bilməz.

...Bu filmdə yalnız bir insan haqqında yaxşı fikir söylənilir. Moskvada qoca erməni bizim qəhrəmandan soruşur: "Tamaşa necə adlanır?" - "İbrahimbəyovun "İlgək" pyesi". "İbrahimbəyov? Məgər bu, azərbaycanlıdır?". Qəhrəmanımız baş barmağını yuxarı qaldıraraq deyir: "Bax, belə adamdır" (yəni, qəribə də olsa, yaxşı adamdır, başqaları kimi deyil).

Bu filmdə Moskva müqəddəs məkandır, orada bütün problemlər həll olunur, hamı xoşbəxtlik tapır. Finalda bu fikir bəsit müqayisə yolu ilə ifadə olunub: Bakıda sözlərinə əməl etməyən yaramazlar bədbəxt azərbaycanlının ofisini darmadağın ediblər (vəhşilər hətta sevimli oyuncağa da rəhm etməyiblər), Moskvada isə həmin dövrdə ağıllı tərpənib gedənləri böyük uğur gözləyir: tamaşaçılar pyesi gurultulu alqışlarla qiymətləndirirlər. Mənası aşkardır - istər Bakıda bağlanmış ofis, istərsə də Moskvadakı alqışlar - bütün bunlar Sovet imperiyasının dağılmasına görə təəssüfləndiyini heç vaxt gizlətməyən müəllifin özünün həyatında baş verənlərdir.

**Bəs, gürcü rejissorunu buna sövq edən nə olub?**

Azərbaycanlıları yaramazlar və cəlladlar kimi göstərmək arzusu onun təhtəlşüurunun hansı guşəsində yaranıb (Gürcüstanın indiki prezidenti də Xocalı qurbanlarının xatirəsinə ehtiramını bildirməkdən imtina edib). Aşkardır ki, rejissor bu başdansovdu, açıq-aydın xaltura tipli işində öz qarşısına heç bir yaradıcı vəzifə qoymayıb, Puşkinin duel tapançası tipli operetta yaradıb. Film Azərbaycan dilini yaxşı bilməyən insanlar tərəfindən səsləndirilib (məsələn, rəsmi məmur "növbətçi" əvəzinə "dejurna" deyir). Eybəcər sifətli bakılı millətçilərin rollarını gürcülər ifa edir, çünki bu filmdə ssenari müəllifinin ən yaxın qohumlarından başqa heç bir azərbaycanlı iştirak etmək istəməyib.

Filmdə personajlardan biri deyir: "Ermənilər bizim bir nömrəli düşmənlərimizdir". Bax, burada müəllif Qarabağ münaqişəsinin başlıca səbəbini nədə görməsini aydın ifadə edir. Buna səbəb Azərbaycan torpaqlarının işğal edilməsi deyil, yeri gəlmişkən, filmdə bu barədə bircə kəlmə də deyilmir. İbrahimbəyovun fikrincə, buna səbəb azərbaycanlıların ermənilərə izahedilməz nifrətidir. Hazırda geniş yayılmış bu nöqteyi-nəzər Rusiya KİV-i tərəfindən səylə ictimai şüura yeridilir. Bu fikri azərbaycanlıdan eşitmək xüsusilə "qiymətlidir". Aydın məsələdir ki, bunu təşəkkür almaq, filmdə göstərildiyi kimi, pyes müəllifinin alqışlanması üçün edirlər. Bu film Böyük Ağ Çarın qarşısında qulluq göstərmək cəhdi (özü də heç də birinci olmayan cəhd), yalnız özünü vəhşi həmvətənləri fonunda humanist və bu humanizminə görə qəhrəman kimi göstərmək istəyidir. Bunlar həmin "vəhşilər"-dir ki, müəllif yaxın keçmişdə prezidentliyə namizədliyini irəli sürərək, onlara rəhbərlik etməyə hazırlaşırdı.

Belə sənətkarlar sovet imperiyasının tipik məhsuludur. Onlar ümid bəslədikləri təşəkkürü alır və rəğbəti qazanırlar. Lakin bunlar həmişə ikrah doğurur. Bəs, hələ də Bakıda mövcud olan və bu müəllifin hələ də nominal rəhbərlik etdiyi təşkilatın üzvləri hansı hissləri keçirirlər?

# Əli Həsənov: "Azərbaycanlılar insani keyfiyyətini itirən bu şəxsə münasibət bildirməlidir"

Prezidentin köməkçisi vətəndaş mövqeyinə görə Ayaz Salayevə təşəkkür edib.

"Mən çox istərdim ki, hər bir azərbaycanlı bu yazı ilə tanış olsun və təkcə milli hisslərini, milli mənsubiyyətini, milli dəyərlərini deyil, həm də adi insani keyfiyyətlərini itirərək, haqqı, ədaləti və reallığı danan bu "məşhur ssenarist"ə münasibət bildirsin".



Bu barədə prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov öz "Facebook" səhifəsində paylaşım edib. Ssenari müəllifi Rüstəm İbrahimbəyov olan "Qafqaz triosu" filminə diqqət çəkən Ə.Həsənov film haqqında yazdığı məqalədə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirdiyinə görə kinorejissor Ayaz Salayevə dərin təşəkkürünü bildirib.

## Rüstəm İbrahimbəyov siyasi və biznes ambisiyalarına görə öz xalqına qarşı bu xəyanətkar addımı atmamalı idi

Rüstəm İbrahimbəyov siyasi və biznes ambisiyalarına görə öz xalqına qarşı bu xəyanətkar addımı atmamalı idi. Hər bir ziyalı bu məsələyə öz münasibətini bildirməlidir. Bunun başqa adı yoxdur, bu, xəyanətdir. Xəyanət də bu və ya digər formada müzakirə olunmur.



Bu fikirləri "Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva "Qafqaz üçlüyü" filminə münasibət bildirərkən deyib.

Sona Vəliyeva qeyd edib ki, Azərbaycan xalqı bu filmdə təhqir olunub. Rüstəm İbrahimbəyov bu addımı siyasi və biznes ambisiyalarına görə atıb. Bizim torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, 1 milyondan çox qaçqın və köçkünümüz var, Xocalı soyqırımı kimi böyük bir faciə yaşamışıq. Bütün bunların üzərində xoşbəxtlik piramidası qurmağa çalışan Rüstəm İbrahimbəyov bu mənfur niyyətlərini həyata keçirmək istəyir. Onun ürəyindən Oskar, Nobel mükafatları qazanmaq keçir. Qoy, gedib nailiyyətini başqa yerdə axtarsın. Bu xalqın faciəsinin, dərdinin üzərindən şöhrət qazanmaq olmaz. Bu, ona heç vaxt uğur gətirməz. Biz belə insanları lənətləməliyik.

Sona Vəliyeva vurğulayıb ki, vaxtilə əsərləri ilə özünü bizə tanıtdıran Rüstəm İbrahimbəyov bu gün əsərləri ilə özünə nifrət qazandırır. Bu dövlət ulu öndər Heydər Əliyevin bizə qoyduğu əmanət və yadigardır. Biz dövlətimizi qoruyaraq onu gələcək nəsillərə çatdırmalıyıq. Biz xəyanətlərə qarşı səsimizi qaldırıb mübarizə aparmalıyıq. Xəyanətə heç nə ilə haqq qazandırmaq mümkün deyil.

**f.ü.f.d.,**
**Sona VƏLİYEVA**

# Xalqdan intiqam alan nankor



Kinorejissor Ayaz Salayevin "Bakinski Raboçi" qəzetində dərc edilmiş məqaləsi Azərbaycanı sevən hər bir insanın ürəyindən xəbər verir və vətəninə, xalqına xəyanət edənlərə kəskin nifrət hissi oyadır. Ancaq bunu da hər bir kəs aydın bilir ki, pula, vara əyilənlərin vətəni ilə bərabər vicdanı, məsləki də olmur. Onlar şəxsi münasibətləri, mənafeyi vətəndaşlıqdan, bəşəri dəyərlərdən üstün tuturlar. Əvvəllər qayğı, hörmətlə əhatə olunan bu insanlar şəxsi maraqları naminə mənsub olduqları xalqı, doğulduğu torpağı, qohum-əqrəbanı, dostu-sirdaşı, ona edilmiş bütün yaxşılıqları bir andaca unudurlar.

Biz bunu Rüstəm İbrahimbəyovun timsalında aydın görürük. Bir vaxtlar Azərbaycan, ölkənin vətəndaşları, bu torpağın barı-bəhrəsi haqqında ağızdolusu danışan, azərbaycanlıları müdrik, ağıllı, cəsarətli, səxavətli insanlar kimi qələmə verən Rüstəm İbrahimbəyov cılız siyasi maraqlar naminə tamamilə dəyişdi, Azərbaycana düşmən kəsildi.

Bu, özünü "böyük yazıçı", "rejissor", "vətənpərvər" kimi qələmə verən bir insana xas olan sifət deyil, əsl ikiüzlülük, riyakarlıqdır. Vətəni, xalqı alçaltmağa, öz nəslini-kökünü, dünən dediklərini danmağa çalışmaqla əsl mahiyyətini ortaya qoyur.

R.İbrahimbəyov Azərbaycan xalqına düşmən cəbhənin, xüsusilə ermənilərin tərəfinə keçərək öz millətini, torpağını gözdən salmaqla, nailiyyətlərimizə, inkişafımıza, insanlarımıza qara yaxmaqla məşğuldur. Özünü Azərbaycanın prezidenti kürsüsündə görməyi arzulayan bu adam bir neçə il bundan əvvəl oyuncaq Milli Şura yaratmaqla başına özü kimi dönük insanları toplayaraq, ölkədə qarşıdurmalar yaratmağa çalışdı. O, erməniləri və ermənipərəst qüvvələri bir cəbhədə birləşdirərək əhatəsini genişləndirmək, Azərbaycanın dövlət quruluşunu sarsıtmaq, bütün dünyada ölkəmizin imicinə zərbə vurmaq fikrində idi. Ancaq bədxah niyyətləri puça çıxdı. Azərbaycan xalqı öz müdrikliyini göstərdi, kimin kim olduğunu ortaya qoydu. Rüstəm İbrahimbəyov kimi xainlərə bu torpaqda yer yoxdur əzmini nümayiş etdirdi, öz birliyini göstərdi. Bundan sonra dönüklər meydandan çəkildilər, Rüstəm İbrahimbəyovun əməlləri də ifşa olundu, onun hardan və necə qaynaqlandığı üzə çıxdı.

Ancaq satılan, öz xalqını rüsvay etmək üçün düşməndən bəhrələnən, göstəriş alan insan heç vaxt sakit otura bilməz. O, götürdüyü öhdəlikləri yerinə yetirmək üçün hansı yollarla olursa-olsun fəaliyyətini davam etdirməli, ağasına sadiqliyini bildirməlidir.

Rüstəm İbrahimbəyovun çəkdiyi "Qafqaz üçlüyü" filmi bunun əyani nümunəsidir. Bu nadan bir neçə il bundan əvvəl Azərbaycan xalqından aldığı zərbələrə nə iləsə cavab verməli idi. Sözsüz ki, bu, müsbət cavab ola bilməzdi və göründüyü kimi o, ermənilərlə birgə çəkdiyi və tamamilə xalqımızın, dövlətimizin mənafeyi, milli dəyərləri əleyhinə yönəlmiş bu filmlə özünün antimilli mövqeyini bir daha ortaya qoydu. Bu xalqa, vətənə xəyanətdir, azərbaycanlı adına ləkədir. Sülhün, münaqişənin, Qarabağ məsələsinin həllinə əngəldir. Özünü "demokrat, azad fikirli humanist insan" hesab edən Rüstəm İbrahimbəyovun bir daha iki xalqı qızışdırmaq, qarşı-qarşıya qoymaq, vuruşdurmaq və bundan bəhrələnmək niyyətindən başqa bir şey deyil.

Filmin məqsədi insanları barışa yox, ədavətə, qan axıtmağa, keçmişdə baş vermiş qanlı hadisələri yenidən təkrarlamağa xidmət edir. Filmdə iştirakçıların birinin dilindən deyilən "ermənilər bizim bir nömrəli düşmənlərimizdir" sözləri buna əyani nümunədir. Halbuki, bu kəlmələri ermənilər ailələrdən, uşaq bağçalarından, məktəblərdən başlayaraq, azərbaycanlıların ünvanına söyləyiblər və övladlarını bu ruhda tərbiyə ediblər. Uzun illər - 1905-1918, 1948-1953 və sonrakı dövrlərdə azərbaycanlıların başına gətirilən müsibətləri Rüstəm İbrahimbəyov da bilməmiş deyil. O, Xocalı, Qaradağlı soyqırımları, Azərbaycanın işğal olunmuş torpaqlarında törədilmiş qanlı faciələr zamanı törədilən dəhşətləri də kor gözləri ilə yaxşı görmüşdür.

Bir çox xarici sənətçilərin, ekspertlərin fikrincə, bu film sifarişlə, tələm-tələsik çəkilib, sənətkarlıq baxımından isə zəifdir. Ancaq nə olursa olsun, əgər o, Azərbaycan xalqının əleyhinə yönəlibsə, həqiqəti əks etdirmirsə və özü də bir azərbaycanlı tərəfindən çəkilibsə, qəbuledilməzdir. İlk növbədə, bu, xalqımızın, dövlətimizin, inkişafımızın mövqeyinə, milli dəyərlərimizə, keçmişimizə, bu günümüzə, gələcəyimizə ziddir, kölgə salmaqdır. Digər tərəfdən, bəşəri dəyərlərə, insanlığa hörmətsizlikdir. Çünki bu gün ziddiyətli dünyada ədavəti qızışdırmaq, münaqişələri genişləndirmək, insanları ölümə, qana, düşmənçiliyə səsləmək, köhnə yaraları qopartmaq yox, sülhü, əmin-amanlığı bərpa etmək, insanları barışdırmaq lazımdır. Vicdanı, qeyrəti, insanlığı olan hər kəs məhz bu nəcib məqsədlərə xidmət etməlidir.

Rüstəm İbrahimbəyovun "Qafqaz üçlüyü" filmi isə yalnız münaqişələri qızışdırmaq, iki xalqı yenidən üz-üzə qoyub müharibəni alovlandırmaq baxımından xarakterikdir. Görünür, kimlərinsə bəxşişləri öz xalqının nifrətinə tuş gələn yazıçını insanlıqdan məhrum edib, bəşəri duyğularını öldürüb, onu millətçi dairələrin quluna çevirib.

Başqalarına qul olmaq, öz xalqına xəyanət etmək isə insan, onun nəsli üçün ən böyük fəlakətdir. Rüstəm İbrahimbəyov artıq neçə ildir ki, bu taleyi yaşayır...

**Tahir RZAYEV,**
**Milli Məclisin deputatı**

# Əlimərdan bəy Topçubaşov

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

TOPÇUBAŞOV (Topçubaşı) Əlimərdan bəy Ələkbər bəy oğlu (4.5.1863, Tiflis - 5.11.1934, Paris, Sen-Deni) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi; Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri (1918, 7 dekabr - 1920, 28 aprel). Rusiyanın müsəlman-türk xalqlarının milli azadlıq hərəkatının liderlərindən biri. Birinci Tiflis gimnaziyasını (1884) və Peterburq Universitetinin hüquq fakültəsini (1888) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini başa vurduqdan sonra bir neçə il Rusiyada işləmiş, 1894-cü ildə Bakıya gələrək, hüquq-mühafizə orqanlarında çalışmış, sonralar müstəqil vəkil kimi fəaliyyət göstərmişdir. Hüquq elmlərinə dərindən bələd olan Topçubaşov tezliklə Hacı Zeynalabdin Tağıyevin diqqətini cəlb etmiş və 1897-ci ildə "Kaspi" qəzetinin redaktorluğu ona tapşırılmışdır. Bakının ictimai-siyasi həyatında fəal iştirak edən Topçubaşov Bakı şəhər Dumasının üzvü seçilmiş, bir müddət onun sədri olmuşdur. Birinci rus inqilabı (1905-07) Rusiyada yaşayan türk-müsəlman xalqlarının milli şüurunun oyanmasında mühüm rol oynadı. Bu dövrdə müsəlman xalqlarının azadlıq mübarizəsinin təşkilində Ə.Topçubaşovun əvəzsiz xidmətləri olmuşdur. İnqilabın gedişində Azərbaycanda da genişlənən petisiya kampaniyasında Ə.Topçubaşovun əməyi son dərəcə böyükdür. Bütün petisiyalar - xahişnamələr, müraciətlər və i.a. bilavasitə onun iştirakı ilə tərtib və təqdim edilirdi. 1905-ci ilin aprelində Cənubi Qafqaz müsəlmanları adından Rusiya Nazirlər Kabinetinə təqdim edilən petisiyalar da Ə.Topçubaşov tərəfindən tərtib olunmuşdur. Ə.Topçubaşov Ümumrusiya müsəlmanlarının 1905-ci il avqustun 15-də Nijni Novqorodda keçirilən I qurultayına sədrlik etmişdir. Topçubaşov Rusiya müsəlmanlarının sonrakı qurultaylarının da keçirilməsində müstəsna rol oynamışdır.

Bakı quberniyasından 1-ci Dövlət Dumasına deputat seçilən (1906) Ə.Topçubaşovun təşəbbüsü ilə Dumada müsəlman fraksiyası yaradılmışdır. Topçubaşov həm fraksiyanın sədri, həm də 7 nəfərlik büro üzvündən biri idi. Dumadakı fəaliyyəti dövründə çarizmin ucqarlarda yeritdiyi milli ayrı-seçkilik siyasətini kəskin tənqid etmişdir.

Ə.Topçubaşov Dumanın buraxılmasına etiraz edən deputatların Vıborq müraciətnaməsini imzaladığına görə üç ay həbs cəzasına məhkum olunmuş, Dumaya seçilmək hüququndan məhrum edilmiş, "Kaspi" qəzetinə rəhbərlikdən uzaqlaşdırılmış, Bakı şəhər Duması üzvlüyündən çıxarılmışdır. Buna baxmayaraq, Ə.Topçubaşov 2-ci Dövlət Duması Müsəlman fraksiyasının əməli işlərində xüsusi fəallıq göstərirdi. O, dəfələrlə Peterburqa getmiş, bəzən isə müsəlman parlament fraksiyası və Ümumrusiya müsəlman ittifaqı Mərkəzi Komitəsi üzvlərinin Dumada müzakirəyə çıxarılan qanun layihələri, həmçinin sorğular üzrə fraksiyanın ümumi mövqeyini işləyib hazırlayan iclaslarına sədrlik etmişdir.

1905-07-ci illər inqilabının məğlubiyyətindən sonra irticanın yenidən baş qaldırması nəticəsində Ə.Topçubaşov 1910-cu ildə Bakıya dönməli olmuşdur.

Topçubaşov 1914-cü ildə Bakıda 45 nəfərdən ibarət "Məşvərət məclisi" təşkil etmiş, müsəlmanların "Tələblər paketi"ni hazırlayaraq, çar hakimiyyəti orqanlarına göndərmişdir. O, 1916-cı ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmişdir. Rusiya Dövlət Şurasının müşavirəsində (1917, 12-15 avqust, Moskva) Topçubaşov Rusiya müsəlmanlarının 8 demokratik təşkilatı adından geniş nitq söyləmiş, Rusiyada "dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarını təyini şüarının qoyulduğunu" da bəyan etmişdir. Topçubaşov 1917-ci ilin sonuna kimi Müsəlman Milli Komitəsinə sədrlik etmiş, həmin il Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, Topçubaşov yeni yaranmış müstəqil milli dövlətin dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərmişdir. Fətəli xan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən xarici işlər naziri olmuş, avqustun 23-də isə Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdir. İstanbulda qızğın diplomatik fəaliyyət göstərən Topçubaşov 1918-ci il oktyabrın 2-dən 1919-cu il yanvarın 16-dək burada 36 rəsmi görüş keçirmiş, 1919-cu il yanvarın 10-da Sultan Mehmetlə görüşmüşdür. İstanbulda olarkən Əlimərdan bəy İngiltərənin, ABŞ-ın, İtaliyanın, Hollandiyanın, İsveçin, İranın, Ukraynanın buradakı səlahiyyətli nümayəndələri - İranın xarici işlər naziri M.Əliqulu xanla, Rusiyanın keçmiş xarici işlər nazirləri P.Milyukov, S.Sazonov və başqaları ilə görüşüb söhbət aparmışdır.

Topçubaşovun İstanbulda yaratdığı Azərbaycan mətbuat bürosu ölkə haqqında məlumat toplamaq, yaymaq və Azərbaycanı xaricdə tanıtmaq işində mühüm xidmət göstərmişdir. Topçubaşov Qafqaz millətlərinin vahid bir federasiyada birləşməsini istəyirdi.



Topçubaşovun İstanbulda fəaliyyət göstərdiyi dövr Osmanlı dövlətinin hərbi və sosial-iqtisadi vəziyyətinin ən böhranlı zamanlarına təsadüf edir.

1918-ci il dekabrın 7-də öz işinə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti elə ilk iclasında M.Ə.Rəsulzadənin təklifi ilə Topçubaşovu qiyabi olaraq Parlamentin sədri seçmişdir. Dekabrın 28-də Azərbaycan hökumətinin və Parlamentin Ağsaqqallar Şurasının birgə iclasında Ə.Topçubaşov Paris Sülh Konfransına (1919-20) göndərilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin sədri təyin olundu və İstanbuldan birbaşa Parisə yola düşdü.

1919-cu ilin mayında Parisə gəlib çatan nümayəndə heyətinin apardığı intensiv diplomatik görüşlər, danışıqlar getdikcə öz bəhrəsini verməyə başlamışdı. ABŞ Prezidenti V.Vilsonun təşəbbüsü ilə İngiltərə, Fransa və İtaliya dövlət başçıları səviyyəsində Azərbaycan məsələsinin gündəliyə salınaraq, müzakirə olunduğu yığıncaqda bilavasitə Prezident Vilsonun Ə.Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı olaraq tanıması və Azərbaycanın Paris Sülh Konfransına qatılması təklifi qəbul edilmişdir. 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının birinci ildönümü günü ABŞ prezidenti V.Vilson başda Topçubaşov olmaqla, Azərbaycan nümayəndə heyətini qəbul etmişdir.

Paris Sülh Konfransında iştirak edən Ə.Topçubaşovun gərgin fəaliyyəti tezliklə öz nəticələrini verdi. Nümayəndə heyəti Sülh Konfransında vahid mövqedən - gənc Azərbaycan Cümhuriyyətinin mənafeyi mövqeyindən çıxış edirdi. Parisdə olmağına baxmayaraq, o, 1919-cu ilin dekabrında yenidən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri seçilmişdir.

1919-cu ilin axırlarına yaxın Rusiyada bolşeviklərin mövqeyinin getdikcə möhkəmlənməsi qalib dövlətlərin Rusiyanın bütövlüyünü bərpa etmək arzusunu puça çıxardı. Nəticədə, onların keçmiş Çar Rusiyasına daxil olan və rus inqilabından sonra öz müstəqilliklərini elan etmiş ölkələrə münasibətləri dəyişdi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Qafqaz məsələsini çox gərgin şəraitdə müzakirə etdi və Böyük Britaniyanın xarici işlər naziri Corc Kerzonun təklifi ilə Azərbaycan və Gürcüstanın müstəqilliyini de-fakto tanıdığını açıqladı. Hazırlanan sənəd yanvarın 12-də Ali Şura üzvləri tərəfindən imzalandı, yanvarın 15-də isə Ə.Topçubaşov və M.Məhərrəmov Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular və qərar rəsmən onlara təqdim edildi. Bu, xalqımızın və xüsusilə Ə.Topçubaşovun rəhbərliyi ilə çox gərgin fəaliyyət göstərmiş Azərbaycan nümayəndə heyətinin böyük qələbəsi idi.

Topçubaşov siyasi fəaliyyətini digər Qafqaz respublikaları nümayəndələrinin fəaliyyəti ilə əlaqələndirməyə çalışmışdır. Bu məqsədlə onlar 1921-ci il mayın 8-də Parisdə bir araya gələrək, Qafqaz Konfederasiyası yaradılması məsələsini müzakirə etmiş, iyunun 10-da isə üç Qafqaz respublikasının səlahiyyətli nümayəndələri Topçubaşovun sədrliyi ilə keçirilən iclasda siyasi və iqtisadi ittifaq yaratmaq haqqında razılığa gəlmişdilər. Həmin iclasda Topçubaşov Azərbaycan nümayəndələrinin Qafqaz Konfederasiyasının qəti tərəfdarı olduqlarını vurğulamışdır.

Topçubaşov 1934-cü ildə, ölümündən bir qədər əvvəl Azərbaycan Milli Mərkəzinin divan üzvü kimi, M.Ə.Rəsulzadə ilə birlikdə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfederasiyası bəyannaməsi"ni imzalamışdır.

Həyatını təkcə öz xalqının deyil, həm də bütün Rusiyanın türk-müsəlmanlarının istiqlalı uğrunda mübarizəyə həsr etmiş Topçubaşov xaricdəki digər siyasi mühacirlərlə birlikdə Azərbaycanın müstəqilliyinin bərpa olunması yolunda fəaliyyətini ömrünün sonuna qədər davam etdirmişdir.

**Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş «Hər birimiz Vətənə xidmət edirik» mövzusundakı yazı müsabiqəsinə təqdim edilir**

# Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı



Vaxtilə Böyük Hun imperatoru Mete xaqanı o dövrün böyük güc sahibi çinlilər müxtəlif vasitələrlə savaş meydanına çəkməyə, müharibə üçün bəhanə yaratmağa çalışırdılar. Bu məqsədlə ilk olaraq ona elçilər göndərib, bir at verməsini istəyirlər. Mete xaqan məsləhətçiləriylə görüşür, "onlar at müqəddəsdir, verilməz", desə də, o, çinlilərin istəyini yerinə gətirir və atı elçilərə verib yola salır. Məqsədlərinin boşa çıxdığını görən çinlilər ikinci dəfə elçilər göndərib, ondan zövcələrindən birini istəyirlər. Məsləhətçilər yenə qəti şəkildə etiraz etsələr də, Mete xaqan bu dəfə də onların istədiyi kimi edir. Yenə də məqsədləri puç olan çinlilər Mete xaqana üçüncü dəfə elçi göndərərək, ondan istifadəsiz qalmış, insan yaşayaman, sərəsiz və ancaq qayalıqlardan ibarət olan bir torpağı istəyirlər. Əvvəlkilərdən fərqli olaraq bu dəfə məsləhətçilər döyüşməkdənsə bu qiymətsiz torpağın verilməsinin tərəfdarı olurlar. Mete xaqanın isə elçilərə cavabı, sözün həqiqi mənasında, möhtəşəm olur: **"Daha əvvəl istədiyiniz at və zövcə mənə aid olduğu üçün onları sizə verdim. Lakin indi məndən mənim olmayan, millətimə aid olan bir şeyi istəyirsiniz, onu sizə verə bilmərəm".** Beləliklə də, daşlıq, qayalıq, sərəsiz də olsa, hər qarışı qiymətli olan vətən torpağı üçün Mete xaqan çinlilərlə döyüşü qəbul edir. Yalnız bu hadisə belə türklərin ta qədimlərdən vətən torpağını necə müqəddəs saydıqlarının, onun üçün qanlarını hər an tökməyə hazır olduqlarının sübutudur. Bu təmənnasız sevginin, vətənə sədaqət nümunəsinin nəticəsidir ki, vətənimiz Azərbaycan bu gün xalqımızın əsas iftixar yeri olmaqla, həm də dövlətimizin qüdrətinin başlıca göstəricisidir.

**Gərək nəbzin vətənin nəbzi ilə vursun**

**Vətənpərvərlik, vətənə sevgi hislərindən danışarkən təkcə ulu öndər Heydər Əliyevin adını çəkmək, onun zəngin irsini xatırlamaq, təbliğ etmək kifayətdir.** Bu gün Azərbaycanın müstəqil və suveren dövlət olmasında, qazandığı nailiyyətlərdə əsl vətənpərvər Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. O, bütün həyatını xalqına, dövlət müstəqilliyinin bərqərar olmasına həsr etmişdir.

90-cı illərin əvvəllərində ölkədə hökm sürən gərgin vəziyyət ordu quruculuğundan da yan keçməmişdi. Ordu sahəsində hökm sürən çətin vəziyyət isə təbii olaraq ölkənin ümumi inkişafına da öz mənfi təsirini göstərirdi. Yalnız 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə bu sahədə də ciddi islahatlara başlanıldı və ulu öndərin gərgin səyləri nəticəsində tez bir zamanda ordu sahəsində əsaslı dönüş yarandı, uğurlu əməliyyatlar həyata keçirildi. Hətta sonralar hakimiyyətə qayıtdığı dövrlə bağlı təəssüratlarını dilə gətirərkən Heydər Əliyevin dediyi sözlər onun daxilində yanan sönməz vətən alovunu, vətən məsələni bu gün də gözlərimiz önünə sərir: **"Eşidəndə ki, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi, mən bilirəm ki, biz burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".**

"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır", deyən ulu öndərin adı, həqiqətən də, öz vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə xidmətin əsl nümunəsidir. Buna görə də əminliklə demək olar ki, Heydər Əliyevin Azərbaycan, onun müstəqilliyi və tərəqqisi naminə etdikləri həm indiki, həm də gələcək nəsillər üçün əsl vətənpərvərlik örnəyidir. Bu gün böyük qürur hissi ilə qeyd edə bilərik ki, müstəqil Azərbaycan dövləti ulu öndərimizin şah əsəri, onun öz xalqı qarşısında əvəzsiz tarixi xidmətlərinin nəticəsidir. Bütün varlığı ilə vətəninə bağlı olan bu insanın "Gərək nəbzin vətənin nəbzi ilə vursun" kəlamı da bunu əyani şəkildə təsdiqləyir.

**Öncə vətən!**

Ulu öndərin vətənə sevgi hisslərindən doğan, hər zaman "öncə vətən" mövqeyindən irəli gələn səyləri bu gün ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqincə və uğurlu şəkildə davam etdirilir. Hazırda Azərbaycan Cənubi Qafqazda ən güclü ordu statusuna malikdir. Bu isə, təbii ki, Azərbaycanın ordu sisteminin modernləşdirilməsi, maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində görülən yüksək səviyyəli işlərin nəticəsidir. Sevindirici haldır ki, ölkəmizin qazandığı bu nailiyyətlər dünya dövlətləri, o cümlədən Ermənistanın özü tərəfindən də təsdiqlənir.

**Prezident İlham Əliyevin «Azərbaycanda güclü ordu vardır. Ordunun potensialı gündən-günə möhkəmlənir, güclənir. Ordu quruculuğu bizim dövlət siyasətimizdir, prioritetdir və son illərdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Ordumuz yeni texnika ilə təchiz edilir. Bu gün Azərbaycan ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Bu göstəriciyə görə bizim ordumuz dünyada ən güclü ordular sırasındadır"** sözləri də ordumuzun qazandığı nailiyyətləri bir daha təsdiqləyir.

**Kim müxalifətdə durursa dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın!**

**Heydər Əliyev**

Ölkəmizdə ordu quruculuğu ilə əlaqədar müdafiə sənayesinin də inkişafına xüsusi diqqət ayrılır. Bu diqqətin nəticəsidir ki, hazırda Azərbaycan Silahlı Qüvvələrinin tələbatının əksər hissəsi məhz daxili istehsal hesabına təmin olunur, eyni zamanda, xarici ölkələrə də hərbi sursat və texnikalar ixrac edilir.

Çox sevindirici haldır ki, Azərbaycan ordusunun nizam-intizamı daha da artır, ordunun döyüş qabiliyyəti güclənir, çoxsaylı uğurlu təlimlər həyata keçirilir, ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və s. vasitələrlə təchiz olunur, ən qabaqcıl dünya təcrübəsi öyrənilir və tətbiq edilir. Hərbi hissələr müasir standartlara uyğun qurulur, şəxsi heyətin həyat və məişət şəraiti yaxşılaşdırılır, hərbçilərin sosial müdafiəsi məsələləri uğurla təmin edilir. Təbii ki, bütün bunlar da Prezident İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsidir.

Hərbi tərəfdaşlarının sayını günü-gündən artıran Azərbaycan bir çox beynəlxalq təşkilatlarla hərbi sahədə uğurlu əməkdaşlığını da davam etdirir. Bu əməkdaşlıq isə xüsusilə müdafiə və təhlükəsizlik sahəsində islahatların aparılması, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin və əməliyyat uyarlılığının artırılması, hərbi təhsil və tədris istiqamətində qabaqcıl təcrübələrin öyrənilməsi, sülhməramlı əməliyyatlarda iştirak, enerji və kibertəhlükəsizliyin təminatı və digər təhlükəsizlik məsələləri ilə bağlıdır. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi NATO ilə qurulan sıx əməkdaşlığa uyğun olaraq, eyni zamanda, bu təşkilatın "Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramı çərçivəsində mövcud mexanizmlərdən də səmərəli şəkildə yararlanır.

Bütün bu deyilənlər isə ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı daim artan, təminat və təchizatı xeyli yüksələn ordumuzun dövlətin və xalqın etimadını doğruldaraq, torpaqlarımızı düşməndən azad etməyə və ərazi bütövlüyümüzü qorumağa qadir olduqlarını bir daha təsdiqləyir.

**Bayraqları bayraq yapan üstündəki qandır, Torpaq, əgər uğrunda ölən varsa, vətəndir!**

Hazırda ölkəmiz müharibə şəraitində yaşayır. Belə bir vəziyyətdə isə ən mühüm məsələlərdən biri gənclərə vətənpərvərlik hisslərinin aşılanması, onların milli ruhda tərbiyə olunmasıdır. Bu baxımdan gənclərə hərb sənətinin incəliklərinin öyrədilməsi, bu sahədə davamlı tədbirlərin həyata keçirilməsi çox vacibdir. Xüsusilə, informasiya-kommunikasiya texnologiyalarının geniş yayıldığı müasir dövrdə onların üstünlüklərindən bu istiqamətdə istifadə edilməsi də təqdirəlayiqdir.

Gənc nəsildə vətənpərvərlik duyğularının formalaşması ətraf mühitdən də çox asılıdır. Adi oxunan əsərlər belə vətənpərvərlik hisslərinin formalaşmasına öz təsirini göstərir. Çünki oxunan hər əsərlə, tanıdığı hər qəhrəmanla formalaşmaqda olan bir nəsil həm də öz milli mənliyini dərk etməyə başlayır. Oxuduğu əsərlərdə insan istər-istəməz özünü oradakı baş qəhrəmanın yerinə qoyaraq, onun yaşadığı hissləri yaşamağa, onun kimi düşünməyə, hətta çox vaxt onun kimi davranmağa başlayır. Buna görə də vətənpərvər duyğularının formalaşması, Azərbaycan əsgərinin hərbi-vətənpərvərlik tərbiyəsi oxunan kitablardan, əsərlərdən də çox asılıdır.

**İnsan vətənini sevər…**

Düzdür, gənclərdə vətənpərvərlik hisslərinin formalaşması, onların hərbi-vətənpərvər ruhda tərbiyəsi üçün müəyyən addımlar atılsa da, əslində vətən sevgisi insanda anadan olduğu andan yaranan, dünyaya gözünü açdığı ilk vaxtdan formalaşan bir hissdir. Necə deyərlər, vətənpərvər olunmur, vətənpərvər doğulur. Məşhur türk dramaturqu Namiq Kamalın "İnsan vətənini sevər" adlı məqaləsində deyildiyi kimi:

**İnsan vətənini sevər.** Çünki Allahın insanlara bəxş etdiyi şeylərin ən əzizi olan həyat vətən havasını tənəffüslə başlayar.

**İnsan vətənini sevər.** Çünki Allahın bizə bağışladığı şeylərin ən parlağı olan göz dünyaya ilk baxdığı zaman vətən torpağını görər.

**İnsan vətənini sevər.** Çünki vücudunun maddəsi vətənin bir parçasıdır.

**İnsan vətənini sevər.** Çünki hürriyəti, rahatı, haqqı, mənfəəti vətəninin sayəsindədir.

**İnsan vətənini sevər.** Çünki onun varlığının əsası olan əcdadlarının səssiz məzarlığı və gələcək uşaqlarının doğulacağı yer də məhz vətəndir…

**Mətanət Hüseynova**




# Təbrik edirik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ərəfəsində Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalamışdır.*

*"İqtisadiyyat" qəzeti Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə, incəsənətimizin təbliği istiqamətində gördüyü işlərinə görə Azərbaycan Respublikasının xalq artisti, xalq rəssamı, əməkdar artist, əməkdar rəssam, əməkdar incəsənət xadimi, əməkdar mədəniyyət işçisi kimi fəxri adlar verilmiş bütün sənətkarları bu yüksək adlara layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, onlara gələcək fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır.*

# Uğurlardan doymayan "No Name"lə "Real"ı birləşdirən çempionluq və ya hər ikisi zirvədə!




"AtaBank" ASC-nin dəstəyi ilə əməkdaşları arasında keçirilən mini-futbol turnirinə yekun vurulub. 36 gün davam edən, gərgin və maraqlı mübarizə ilə yadda qalan yarışda yeni çempion müəyyənləşib. Ümummilli lider Heydər Əliyevin xatirəsinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan ənənəvi turnirin 7-ci ilində "No Name" yenidən zirvəyə qayıdıb.

Yarışın ən titullu komandası bununla da 4-cü dəfə çempion tituluna yiyələnib. Onlar həlledici qarşılaşmada "Synergy Group"-dan güclü olublar. Üçüncü yerin sahibinin adı isə dəyişib. "Synergy Group" ikinci olduğundan ötən mövsümün qalibi MXD bürünc medallara yiyələnib.

Belə ki, mayın 26-da meydana MXD ilə "Qalaaltı" çıxmalı olsa da, ikincilər gözlənilmədən oyuna gəlməyiblər. Bu səbəbdən də 3-cü yer uğrunda matç baş tutmayıb. MXD mübarizəsiz qalib elan olunub.

Nəticədə, bütün diqqətlər final görüşünə yönəlib. Hər il olduğu kimi, bu dəfə də Tennis Akademiyasında baş tutan və AFFA-nın hakimlər briqadasının idarə etdiyi oyun bir sıra yeniliklərlə diqqət çəkib.

"Adsız komanda"nın daha bir oxşarlığı isə əvvəl oyunçu, sonra məşqçi kimi komandaya rəhbərlik edənlərinin olmasıdır. Yəni, Zinəddin Zidan "Real"ı bir futbolçu kimi uğurlara daşıdıqdan sonra hazırda klubun "sükanı arxasında"dırsa, burada da Etibar Babaşlı eyni funksiyanı yerinə yetirir. Bunadək komandasına meydanda fayda verən rəhbər bu dəfə çalışdırıcılıq keyfiyyətini də ortaya qoyub.

Hətta çəkinmədən demək olar ki, "No Name" məhz Babaşlının qurduğu taktika və verdiyi tapşırıqlarla lazımı nəticəni qazanıb. Buradək uduzmayan komanda turnirə elə qələbə ilə də yekun vurub.

Beləliklə, uzun sürən marafon "No Name"in qələbəsi ilə başa çatıb. "Synergy Group"un ikinci olduğu turnirdə "üçlüy"ü MXD qapayıb.

**Final**
"No Name" –
"Synergy Group" – 4:1
Üçüncü yer uğrunda matç
MXD - "Qalaaltı" - +:
- (texniki qələbə, 5:0)

Oyunların ardınca yarışın bağlanış mərasimi təşkil olunub. Turnirin təşkilatçısı "AtaBank" ASC-nin İdarə Heyəti sədrinin birinci müavini Etibar Babaşlı çempionatın həmişəki kimi maraqlı və gərgin keçdiyini bildirib. "No Name" klubuna rəhbərlik edən bank rəsmisi mükafatçıları təbrik etdikdən sonra yeni ildə də yarışın təşkil olunacağını qeyd edib. O vurğulayıb ki, 7 ildir keçirilən turnir ildən-ilə daha gərgin xarakter alır və bütün komandalar bir-birinə ciddi rəqib kimi baxırlar.

"AtaBank" ASC-nin İdarə Heyəti sədrinin birinci müavininin çıxışından sonra turnirin mükafatlandırma mərasimi də keçirilib.

Mərasimində yarışın ən yaxşılarının da adları açıqlanıb. Turnirin ən yaxşı oyunçusu MXD-nin üzvü Elçin Merdiyev seçilib. Yarışın bombardiri adına Fərid Şabanzadə ("Synergy Group", 14 qol) sahib olub. "No Name"in çempion olmasında xüsusi rolu olan Cahangir Qənizadə qapıçılar arasında bütün rəqiblərini qabaqlayıb. Onlar ən yaxşılar üçün nəzərdə tutulan 500 manatla mükafatlandırılıblar.

# Dörd ayda Azərbaycana gələn və gedənlərin sayı açıqlanıb

Bu ilin yanvar-aprel ayları ərzində Azərbaycana dünyanın 182 ölkəsindən 847,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Bildirilir ki, gələnlərin 28,3 faizi Rusiya Federasiyası, 21,9 faizi Gürcüstan, 13,4 faizi İran, 11,3 faizi Türkiyə, 4,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2 faizi Ukrayna, 1,9 faizi İraq, 16,5 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 66,8 faizini kişilər, 33,2 faizini isə qadınlar təşkil edib.

Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 22 faizi yanvar, 19,6 faizi fevral, 32,7 faizi mart, 25,7 faizi isə aprel ayında ölkəyə gəlib.

Cari ilin yanvar-aprel aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-aprel ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 6,4 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,6 dəfə, Qətər vətəndaşlarının sayı 2 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Oman vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 1,6 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 1,2 dəfə artıb. İrandan gələnlərin sayında 5,4 faiz azalma müşahidə edilib.

Yanvar-aprel aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 12,4 faiz artaraq 32 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 9,4 faiz artaraq 284,9 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 60,6 faizi dəmir yolu və avtomobil, 38,6 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

Cari ilin yanvar-aprel aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyon 289 min nəfər olub. Ölkə vətəndaşlarının 31,3 faizi Gürcüstana, 27,7 faizi İrana, 21,9 faizi Rusiya Federasiyasına, 12,2 faizi Türkiyəyə, 1,7 faizi Ukraynaya, 1,4 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,8 faizi isə digər ölkələrə səfər edib. Səfər edənlərin 68,4 faizi kişilər, 31,6 faizi isə qadınlar olub.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 11,6 faiz artıb, Türkiyəyə gedənlərin sayı 16,1 faiz, Gürcüstana gedənlərin sayı 3,6 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 1,1 faiz azalıb.

Yanvar-aprel aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 80 faizi dəmir yolu və avtomobil, 19,1 faizi hava, 0,9 faizi isə su nəqliyyatından istifadə edib.

# ETİBARSIZDIR

İsmayılov Ülvi Əbilfət oğlunun adına Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, bina 9, mənzil 9 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılsın.

Məmmədov Əlipaşa Paşa oğlunun adına Türkan qəsəbəsində 214 saylı bağ sahəsinin 7973 N-li müqaviləsi itdiyi üçün etibarsız sayılsın.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500